# HƏYAT BİLGİSİ



5

DƏRSLİK

 

# Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

GÜLƏR MEHDİYEVA
BAHAR KƏRİMOVA

# HƏYAT BİLGİSİ 5

*Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün*
*Həyat bilgisi fənni üzrə*

**DƏRSLİK**

Bu nəşrlə bağlı irad və təkliflərinizi
aspoligraf.ltd@gmail.com və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

«ASPOLİQRAF»
BAKI–2017

# KİTABIN İÇİNDƏKİLƏR


## VƏTƏNDAŞ CƏMİYYƏTİ

1. Yeni dərs ili........................................................................6
2. Ailə və dövlət ......................................................................9
3. Sosial qruplar .....................................................................12
4. Hüquqlarımız qorunur........................................................15
5. İnsan hüquqlarını qoruyan beynəlxalq təşkilatlar ..............18

## MƏNƏVİ HƏYAT

6. Ünsiyyət mədəniyyəti.........................................................21
7. Mənəvi sağlamlıq ...............................................................25
8. Mənəvi borc .......................................................................28
9. Din və cəmiyyət .................................................................31
10. Dini etiqad azadlığı ...........................................................34

## VARLIQ VƏ HADİSƏLƏR

11. Maddə və cisim .................................................................37
12. Saf maddələr və qarışıqlar.................................................40
13. Maddələrin yaranması.......................................................44
14. Hərəkət .............................................................................47
15. Enerji ................................................................................51

## EKOLOJİ TARAZLIQ

16. Xarici mühit amilləri..........................................................54
17. İnsanın təbiətə təsiri .........................................................57
18. İqtisadi resurslar və vasitələr.............................................61

## SAĞLAM VƏ TƏHLÜKƏSİZ HƏYAT

19. Sağlamlığın qorunması......................................................65
20. Emosiyalar və sağlamlıq ....................................................68
21. Piyada və sərnişin mədəniyyəti..........................................71
22. Məişətdə necə davranmalı.................................................74
23. Özümüzü qorumağı bacaraq ............................................77

Siz indi 5-ci sinifdə oxuyursunuz. Bu o deməkdir ki, artıq ibtidai təhsil pilləsini bitirib orta təhsil pilləsinə keçmisiniz. Keçən bu illər ərzində siz bir çox nailiyyətlər əldə etmişsiniz. 5-ci sinifdə oxuyarkən daha böyük uğurlar, yeni-yeni bacarıqlar əldə edəcəksiniz. Bu dərslikdə olan mövzular sizə ətrafınızdakı cisim və hadisələri daha dərindən dərk etməyə kömək edəcək. Siz də, təbii ki, fəaliyyətsiz qalmayacaqsınız, dərslərdə fəal iştirak edəcək, maraqlı və düşündürücü suallar verəcəksiniz. Sinif yoldaşlarınızı əlavə məlumatlarla tanış edəcək, maraqlı layihələrin iştirakçısı olacaqsınız. Ən əsası «Həyat bilgisi» fənnində öyrəndiklərinizi öz həyatınızda tətbiq edəcəksiniz.




## ŞƏRTİ İŞARƏLƏR



Yönləndirici suallar



Düşünək




Araşdıraq




Təcrübə edək

# 1. YENİ DƏRS İLİ



***Bilik günü nə üçün əlamətdar gün hesab olunur?***

**Bilik günü.** 15 sentyabr Azərbaycanda Bilik günü kimi qeyd olunur. Bilik günündə ölkəmizdə yeni tədris ili başlayır. Yay tətilindən sonra bütün məktəblilər yenidən məktəbə gəlirlər. 6 yaşı tamam olmuş minlərlə uşaq isə ilk dəfə birinci sinifdə şagird kimi dərslərə başlayır. Şagirdlər, müəllimlər və valideynlər bu günü səbirsizliklə gözləyirlər.

Dünyanın gələcəyi uşaqların sağlamlığından və təhsilindən asılıdır. İnsan hüquqlarına aid olan beynəlxalq sənədlərdə göstərilmişdir ki, hər bir insanın təhsil almaq hüququ vardır.

Təhsil almaq insanın əsas hüquqlarından biridir. İnsanlar cəmiyyətdə layiqli yer tutmaq üçün təhsil almalıdırlar. Təhsil insanların istedad və qabiliyyətlərini üzə çıxarıb inkişaf etdirir. Təhsil alan insan bilik və bacarıqlar əldə edir. Bu bilik və bacarıqlar insanın özünə inamını artırır. O, cəmiyyət üçün daha faydalı işlər görür. Təhsilli insan öz hüquqlarını bilir və onların pozulmasına qarşı mübarizə aparır. Ona görə də inkişaf etmiş ölkələrdə təhsilin inkişafına xüsusi diqqət göstərilir. Dövlət öz vətəndaşlarının təhsil hüququnu təmin edir.




*1.*

**Təhsil hüququnun xüsusiyyətləri.** Təhsil hüququnun bir sıra xüsusiyyətləri vardır. Bunlar aşağıdakılardır:

1. İnsanların təhsil hüququnun təminatı üçün, ilk növbədə, təhsil müəssisələri olmalıdır. Yəni bütün uşaqları qəbul edə biləcək qədər uşaq bağçaları, orta məktəblər, peşə məktəbləri və s. inşa edilməlidir. Onlar müasir avadanlıqla təmin olunmalıdır. Bu müəssisələrdə müəllim və şagirdlər üçün lazımi şərait yaradılmalıdır.

2. Təhsil müəssisələri heç bir ayrı-seçkiliyə yol verilmədən hamı üçün əlçatan və açıq olmalıdır. Yəni varlı, yaxud kasıblığından asılı olmayaraq, hamıya təhsil almaq imkanı yaradılmalıdır. Hər bir insan onun üçün əlverişli məkanda yerləşən təhsil müəssisəsinə getmək, müasir texnologiyalardan istifadə etmək imkanına malik olmalıdır.

3. Cəmiyyət daim inkişaf edir. Təhsil bu inkişafdan geri qalmamalı və dövrün tələblərinə uyğun vətəndaşlar yetişməsinə şərait yaratmalıdır.

**Azərbaycanda təhsilə dövlət qayğısı.** Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra dövlətimiz milli təhsilin inkişafına xüsusi diqqət göstərməyə başladı. Azərbaycanın tarixini və təbiətini dərindən öyrədən dərsliklərimiz hazırlandı. Artıq xeyli müddətdir ki, şagirdlər dərsliklərlə ödənişsiz (pulsuz) təmin olunurlar.

Azərbaycan dövləti çalışır ki, bütün məktəblərdə rahat sinif otaqları, müasir

**MÜASİR MƏKTƏB**


2.
*dərs otağı*


3.
*idman zalı*


4.
*texnologiya kabineti*

**Araşdırın:**



Yaşadığınız yerdə (şəhərdə, qəsəbədə, kənddə) təhsilə dövlət qayğısını göstərən faktları müəyyən edin.

*Məktəbinizi təsvir edin. Orada nəyi dəyişmək istərdiniz?*

*Azərbaycanda uşaqlar üçün təşkil edilmiş hansı müsabiqələr haqqında eşitmişsiniz? Bu müsabiqələrdən hansılarında iştirak etmək istərdiniz?*

idman zalları, kompüterlə təmin edilmiş otaqlar olsun. Dövlət tərəfindən məktəb və uşaq bağçaları üçün daim yeni binalar inşa etdirilir. Bununla yanaşı, əvvəllər tikilmiş təhsil müəssisələri də təmir olunub müasir avadanlıqla təchiz edilir.

Azərbaycan dövləti uşaqların fiziki və əqli inkişafına yönələn yarışlar, gənc istedadları üzə çıxaran müsabiqələr keçirir. Bu yarış və müsabiqələrdə uşaqların göstərdikləri nəticələr təhsil siyasətinin uğurlarını aşkara çıxarmağa kömək edir.

2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə ölkəmizdə əlamətdar günlər sırasına 15 sentyabr Bilik günü də əlavə olundu. Bu, Azərbaycan dövlətinin təhsilə böyük diqqət və qayğı göstərməsinin ifadəsi idi.

Bilik günü uşaqların da, böyüklərin də bayramıdır. Hər bir şagird məktəbə daxil olduğu gündən məsuliyyətlə çalışmalıdır. Siz də bir şagird olaraq qarşınıza qoyulan vəzifələri yerinə yetirməli, dövlətimizin yaratdığı imkanlardan səmərəli istifadə edib onu dəyərləndirməlisiniz.

Azərbaycan Respublikasında vətəndaşların təhsil hüququna onun Konstitusiyasında təminat verilmişdir. Konstitusiya isə ölkəmizin əsas qanunudur. Konstitusiyanın 42-ci maddəsində deyilir:

1) hər bir vətəndaşın təhsil almaq hüququ vardır;
2) dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir;
3) təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir;
4) maddi vəziyyətindən asılı olmayaraq, istedadlı şəxslərin təhsilini davam etdirməsinə dövlət zəmanət verir;
5) dövlət minimum təhsil standartlarını müəyyən edir.

**Sual və tapşırıqlar:**

1. Bilik günündə sizi ən çox nə sevindirir?
2. Azərbaycan dövləti uşaqların təhsil hüququnun təmin olunması üçün hansı tədbirləri həyata keçirir?
3. Ölkənin inkişafının təhsillə necə əlaqəsi vardır?
4. Məktəbinizdə Bilik günü münasibətilə hansı tədbirlər keçirilir?

## 2. AİLƏ VƏ DÖVLƏT



***«Ailə kiçik dövlət, dövlət böyük ailədir» fikri nəyi ifadə edir?***

**Ailə.** Ailə kiçik qrupdur. Ailə üzvlərini ***nikah**** və qan qohumluğu birləşdirir. Ailə üzvləri bir-birinə ən doğma insanlardır. Ailədə uşaqlar bir ata-ananın övladı olaraq dünyaya gəlir, birlikdə yaşayıb bir-birinin qayğısını çəkirlər.

Ailələr tam və natamam olur. Tam ailə ata, ana, bir, yaxud bir neçə övladdan ibarətdir. Natamam ailədə müəyyən səbəblərə görə valideynlərdən biri olmur. Zaman keçdikcə ***nəsillər**** dəyişir. Yəni bir ailədə olan uşaqlar böyüyür, özləri də ailə qurur, valideyn, daha sonra baba-nənə olurlar. Baba-nənələr, ata-analar və nəvələr bir ailənin üç müxtəlif nəslidir.

Ailədə böyümək hər bir uşağın hüququdur. Uşaqların ətraf aləmlə ilk tanışlığı ailədən başlanır. Uşağın gələcəkdə necə şəxsiyyət olması ailə tərbiyəsindən çox asılıdır. Bir çox hallarda uşaq hələ məktəb yaşına çatana qədər saymağı, şeir söyləməyi, oxuyub-yazmağı ailə üzvlərindən öyrənir. Bunun sayəsində məktəbə gedəndə təhsildə daha böyük uğurlar qazanır.

Azərbaycan Respublikasının Konstitusiyasında ailə cəmiyyətin əsas özəyi adlandırılır. Dövlət valideynlərin uşaqların qayğısına necə qaldığına nəzarət edir. Elə valideynlər var ki, üzrlü və üzrsüz səbəblərə görə öz uşaqlarına lazımi qayğı göstərə bilmirlər. Dövlət belə ailələrdən olan uşaqların qayğısını öz üzərinə götürür.



1.

*ailə qayğısı*



2.

*bir ailənin üç nəsli*

***nikah** – evlənmənin dövlət tərəfindən qeydə alınması
***nəsil** – ulu babaları bir olan qohumlar

Dövlətin təşkil etdiyi uşaq evlərində və internat məktəblərdə valideyn himayəsindən məhrum olmuş uşaqların yaşaması, təhsil alması üçün hər cür şərait yaradılır. Dövlət bu uşaqların sağlamlığının qorunması üçün də lazımi tədbirlər görür. Onlar pulsuz tibb xidməti, həkim nəzarəti ilə təmin olunurlar.

Ölkəmizdə valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün SOS Uşaq kəndləri yaradılmışdır. Uşaqlar SOS Uşaq Kəndinə körpəlikdən qəbul edilirlər. Burada mehriban və mərhəmətli qadınlar onlara ana qayğısı göstərirlər.

*Dövlət qayğısı ailəni əvəz edə bilərmi?*

Ailə uşağın sağlam inkişafı və cəmiyyətdə layiqli yer tutması üçün ən uyğun mühitdir. Ona görə də dövlət uşaq müəssisələrində yaşayan uşaqların ailələrə verilməsinə çalışır. Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsində yazılmışdır: «Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir».

*Nə üçün ailəni dövlətin özəyi adlandırırlar?*



**Araşdırın:**

Yaşlı ailə üzvlərinizlə sorğu aparın. Onlardan aldığınız məlumatlar əsasında ailənizin nəsil ağacını tərtib edin.

Hazırda ölkəmizdə iqtisadiyyatın sürətli inkişafı hər bir ailənin həyat şəraitinin yaxşılaşması üçün geniş imkanlar açır. Həyat şəraitinin yaxşılaşması isə ailədə uşaqların sağlam böyüməsinə, hərtərəfli təhsil almasına və cəmiyyətdə özünə layiqli yer tutmasına kömək edir.

**Dövlətin yaranması.** Çox qədim dövrlərdə ibtidai insanlar ***ulu icma*** adlanan toplumlar halında yaşayırdılar. Birgəyaşayış onların qida əldə etməsini, düşmən hücumlarından qorunmasını asanlaşdırırdı. Vaxt keçdikcə ulu icma öz yerini ***qəbilə icmasına*** verdi. Qəbilədə insanları qan qohumluğu birləşdirirdi. Onlar birlikdə yemək üçün meyvə və bitki yığırdılar. Növbə ilə keşik çəkərək tonqalda odu sönməyə qoymurdular. Qəbilə üzvləri tonqalın ətrafına yığılıb qızınır, ov heyvanlarının ətini bişirirdilər. Zaman ötdükcə qəbilə üzvlərinin sayı artırdı. Onlar yığıcılıq və ovçuluqla yanaşı, əkinçilik və maldarlıqla da məşğul olmağa başladılar. Xeyli vaxtdan sonra eyni dildə danışan, eyni adətlərə əməl edən qəbilələr birləşərək ***tayfalar*** yaratdı.

Tayfa üzvlərindən bəziləri çoxlu sərvət ələ keçirir, böyük nüfuz qazanırdılar. Ən güclü tayfa üzvü tayfanın başçısı olurdu. Tayfa başçısı tayfanın düşmən

hücumlarından müdafiəsini təşkil edir, tayfa üzvlərinin mübahisəli məsələlərini yoluna qoyurdu. Tayfanın sərvətini, onun məskunlaşdığı ərazini yadellilərdən qorumaq üçün tayfa başçıları hərbi qüvvə saxlayırdılar. Tayfa başçısı və hərbi başçılar adi tayfa üzvlərindən fərqli olaraq çoxlu sərvət toplayırdılar. Bu da tayfa üzvləri arasında bərabərsizliyin yaranmasına səbəb olurdu.

Zaman keçir, tayfalar böyüyür, onların sayı çoxalırdı. Mal-qaranın sayı artdıqca geniş otlaq sahələrinə ehtiyac yaranırdı. Qüvvətli tayfalar zəif tayfaların üzərinə hücum edir, onların sərvətini talayır, otlaq sahələrini ələ keçirirdi. Bəzən də zəif tayfalar qüdrətli qohum tayfalarla birləşir, ***tayfa ittifaqları*** yaradırdı. Tayfa ittifaqında mühüm məsələləri ağsaqqallar həll edirdilər.



3.

Yüz min illər ərzində cəmiyyətdə baş verən bu inkişaf nəticəsində **dövlət** meydana gəldi. Dövlətin yaranmasının əsas şərtləri – onun ***ərazisi, əhalisi, xəzinəsi, hərbi qüvvəsi*** və ***ali idarəetmə orqanı*** idi.



*Dövlətin yaranması üçün hansı amillər lazımdır?*

Sonralar cəmiyyət daha da inkişaf etdi və onun idarə edilməsi üçün qanunlar toplusu yarandı. Azərbaycan ərazisində yaranan ilk qədim dövlət Manna dövləti olmuşdur. Onun paytaxtı İzirtu şəhəri idi.

---

* ***asayiş*** – əmin-amanlıq, dinclik, sakitlik, nizam və qayda

## Sual və tapşırıqlar:

1. Ailədə uşaq hansı bilik və bacarıqlara yiyələnə bilər?
2. Dövlət nə üçün uşaq evlərində olan uşaqların ailələrə verilməsini istəyir?
3. Ailədə valideynlər öz övladının qayğısına qalmasa, nə baş verər?
4. Nəsil və tayfa nədir?
5. Dövlətin yaranması üçün vacib şərtlər hansılardır?

## 3. SOSİAL QRUPLAR



*Ailədə ailə üzvü, məktəbdə şagird, həyətdə qonşuyuq. Görəsən, biz daha kimik?*

**Fərdlər və sosial qruplar.** Orta əsrlərdə yaşamış böyük Azərbaycan alimi Nəsirəddin Tusi yazırdı: «İnsanlar arasında birinci birlik ailədir. İkinci birlik forması məhəllədir. Sonra şəhər, sonra ölkələr, ən sonda isə bütün dünya birliyi gəlir. Hər adam bir ailənin, hər ailə də bir məhəllənin tərkib hissəsidir. Hər məhəllə bir şəhərin, hər şəhər bir ölkənin tərkib hissəsidir. Hər ölkə də bütün dünya birliyinin tərkib hissəsidir».



*Sizcə, müasir dövrdə vəziyyət dəyişmişdirmi?*

Ailədə insanı ailə üzvləri, məktəbdə sinif yoldaşları, işdə iş yoldaşları əhatə edir. Asudə vaxtlarında isə o, dost-tanışları ilə birlikdə olur. İnsanlar ailə üzvləri, məktəb və iş yoldaşları, qohumlar, qonşular, dostlarla ünsiyyətdə olaraq tək qalmırlar. Başqa sözlə desək, sənətinə, peşəsinə, məşğuliyyətinə, ünsiyyətin xarakterinə görə insanlar müxtəlif ***sosial qruplar*** yaradırlar.



*İnsan heç bir sosial qrupa daxil olmadan yaşaya bilərmi?*

Sosial qrup ümumi məqsədi, mənafeyi olan insanların birliyidir. Bu məqsəd isə çox müxtəlif ola bilər: təhsil, əmək fəaliyyəti, yaradıcılıq və s. Məsələn, məktəbliləri ümumi orta təhsil, tələbələri isə ali təhsil almaq məqsədi birləşdirir. Təhsili başa vurduqdan sonra onlar müəllim, mühəndis, həkim, hüquqşünas və s. peşələrə yiyələnir, müxtəlif iş kollektivlərinə daxil olurlar.




Cəmiyyətdə müxtəlif dinlərə etiqad edən insanlar vardır. Bu insanları etiqad etdikləri din birləşdirir. Beləliklə, cəmiyyət bir-biri ilə əlaqədə olan böyük və kiçik sosial qruplardan ibarət olur.



*Sosial qruplar insanları bir-birindən ayırır, yoxsa birləşdirir?*

Bir ailədə müxtəlif yaşlı, müxtəlif peşəli, müxtəlif dünyagörüşlü insanlar yaşayırlar. Ona görə də bir ailənin üzvləri müxtəlif sosial qruplara aid olurlar.



**Araşdırın:**

Öz ailə üzvlərinizin aid olduqları sosial qrupları müəyyənləşdirin.



*Sosial qruplar arasında görünən «sərhədlər» varmı?*



*Sosial qruplar bir-birinə necə təsir edir?*

Məsələn, ata iş adamı, ana həkim, uşaqlar məktəbli və tələbə, baba və nənə isə pensiyaçı ola bilər. Eləcə də bir şəxsiyyət eyni zamanda bir neçə sosial qrupa aid ola bilər. Məsələn, bir nəfər şəxs peşəsinə, təhsilinə, yaşına, cinsinə, milli mənsubiyyətinə görə müxtəlif sosial qruplara daxil edilir.

**Milliyyət və millət.** «Milliyyət» dedikdə soykökü, dili, adət-ənənələri, məişət ümumiliyi və s. olan insanlar toplumu başa düşülür. Məsələn, milliyyəti türk, rus, ingilis, fransız, italyan və s. olan insanları eyni kökdən olmaları, eyni dildə danışmaları, eyni adət-ənənə və s. bağlayır.

Bir çox hallarda ölkə onun tarixində oynadığı rola və əhalinin böyük qismini təşkil etməsinə görə bir milliyyətdən olan toplumun adı ilə adlanır. Məsələn, Türkiyə türklərin, Polşa polyakların, İtaliya italyanların, Yunanıstan yunanların vətənidir.

Yurd, vətən ümumiliyi də insanları bir sosial qrupda birləşdirir. Müasir dövrdə dünya ölkələrinin sayı 200-ü keçmişdir. Onların arasında həm ərazisinə və əhalisinin sayına görə böyük olan ölkələr (Çin, Hindistan, Rusiya, ABŞ), həm də kiçik dövlətlər (Monako, Andorra) vardır. Bu ölkələrin hər birində müxtəlif millətlərə mənsub olan insanlar yaşayıb onun vətəndaşları olurlar. Məsələn, Azərbaycanda azərbaycanlılar (91,6%), ləzgilər (2%), ruslar (1,3%), talışlar (1,3%) və digər milliyyətdən olan insanlar (3,8%) ölkənin bərabərhüquqlu vətəndaşıdırlar. Onların hamısını Azərbaycan dövləti, dövlət dili, Azərbaycan torpağı birləşdirir. Ona görə də müasir




1.

dövrdə «millət» anlayışı eyni kökdən olan toplum yox, yaşadıqları və ***vətəndaşı olduqları dövlətə öz dövləti kimi baxan*** insanların birliyi kimi başa düşülür.

**Dünya əhalisi.** Ölkələrin xalqları dünya əhalisinin tərkib hissəsidir. Dünyanın əhalisi dil, din, irq kimi çox böyük insan qruplarına ayrılır.

Dünyada 7000-ə yaxın dil mövcuddur. Bu dillər əsas əlamətlərinə görə müxtəlif dil ailələrində birləşir. Misal olaraq, Hind-Avropa (ingilis, alman, ispan, italyan, yunan və s.), Hami-Sami (ərəb, yəhudi, tunis dili və s.), Türk (Azərbaycan, türkmən, özbək, tatar və s.) və başqa dil ailələrini göstərmək olar.



2.

Dünya əhalisi dininə görə də fərqli qruplara bölünür. Təkallahlı səmavi dinlərə (yəhudilik, xristianlıq, islam) etiqad edən insanlar daha çoxdur. Qeyri-səmavi (məsələn, buddizm), eləcə də müxtəlif yerli dinlərə (məsələn, Hindistanda induizm, Çində konfutsiçilik, Yaponiyada sintoizm və s.) etiqad edənlər də vardır.

Dünya xalqlarını dərisinin rənginə (ağ, qara, sarı) və xarici əlamətlərinə görə də üç əsas irqə ayırırlar. Bunlar avropoid, neqroid və monqoloid irqləridir. İrqlər tarixən konkret bir ərazidə yaşayan, nəsildən-nəslə keçən fiziki əlamətlərə malik böyük insan qruplarıdır.

Dilindən, dinindən və irqindən asılı olmayaraq, bütün insanları ən mükəmməl varlıq – insan olmaları birləşdirir. Bu fərqlər yer üzündəki insanların eyni hüquqlara malik olmasına heç bir təsir göstərmir.

**Sual və tapşırıqlar:**

1. Sosial qrup nədir?
2. Cəmiyyətdə yaşayıb onu təşkil edən sosial qruplardan kənarda qalmaq olarmı?
3. Müasir insan nə üçün cəmiyyətdən ayrı yaşaya bilməz?
4. Cəmiyyətdə mətndə adları çəkilənlərdən başqa, daha hansı sosial qruplar vardır? Bu mövzuda mühakimə xarakterli esse yazın.

# 4. HÜQUQLARIMIZ QORUNUR






***Siz bu sualların cavablarını bilirsinizmi? Onlara nə məsləhət görərdiniz?***

**Cəmiyyətdə münasibətlər.** Zəruri ehtiyaclarını ödəmək üçün insanlar müxtəlif sahələrdə çalışırlar. Məsələn, kəndli-fermer öz torpağında pambıq becərir. Fabrikdə işləyən insanlar bu pambıqdan sap əyirir və parça toxuyurlar. Başqa bir fabrikdə bu parçadan paltar tikilir. Tikilmiş paltarı bir ticarətçi alıb dükanlarında satdırır.

İnsanlar məktəblərdə təhsil alırlar. Onlara müəllimlər dərs deyir. Xəstələnəndə müalicə edən tibb işçilərinə ehtiyac olur. Beləliklə, insanlar bir-biri ilə sahibkar-işçi, alıcı-satıcı, həkim-xəstə və s. münasibətlərdə olurlar. Bu münasibətlərin normal davam etməsi hamı üçün əlverişlidir. Kimə keyfiyyətsiz məhsul satılırsa, kim aldığı təhsilin, yaxud tibb xidmətinin keyfiyyətindən narazı qalırsa, demək, onların hüquqları pozulur. Vətəndaş-




4.




ların bu və digər hüquqlarının təmin olunması və qorunması dövlətin funksiyasına aiddir. Dövlət vətəndaşların əmək, təhsil, yaradıcılıq və s. münasibətlərini tənzimləyir.

**Dövlət hakimiyyəti. Qanunverici orqan.** Vətəndaşların hüquq və azadlıqlarını təmin edən qanunlar yaratmaq, bu qanunların işləməsinə nəzarət etmək dövlətin vəzifəsidir.

Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaşların bərabərlik, yaşamaq, azadlıq, mülkiyyət, əmək, istirahət, təhsil, mədəniyyət və s. hüquqları təsbit olunmuşdur. Dövlət bu hüquqları təmin etməyə və onların pozulmasının qarşısını almağa borcludur. Konstitusiyamızın 71-ci maddəsində göstərilir ki, insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur.

Qanunverici orqan olan Milli Məclis cəmiyyət həyatının bütün sahələrində münasibətləri tənzimləyən qanunlar qəbul edir. Bu qanunlar hazırlanarkən insan və vətəndaş hüquqlarının təmin olunması nəzərə alınır.

**İcra orqanları.** İcra hakimiyyəti orqanları qəbul edilmiş qanunları cəmiyyətdə tətbiq edir. Dövlətin müxtəlif icra orqanları vardır. Məsələn, Azərbaycan Respublikası Təhsil Nazirliyi ölkə vətəndaşlarının təhsil hüququnu həyata keçirən icra orqanıdır. Səhiyyə Nazirliyi isə onların sağlamlığı üçün cavabdehlik daşıyır.

*Qanunlar olmasa, cəmiyyətdə insanlar arasında münasibətlər necə ola bilər?*

*Müzakirə edin: cəmiyyətdə qanunların olmaması kimlər üçün əlverişlidir?*

Azərbaycan Respublikasında vətəndaşların əmək və sosial müdafiəsi, ***qaçqın**** və ***köçkünlərin****, müharibə veteranlarının, qadın və uşaqların hüquqlarının müdafiəsi və s. üzrə icra orqanları da fəaliyyət göstərir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi ölkənin icra hakimiyyətinə mənsub olan hüquq-mühafizə orqanıdır. Bu icra orqanının vəzifəsi vətəndaşların həyat, təhsil, sağlamlıq, mülkiyyət və s. hüquqlarının pozulmasına yönələn hərəkətlərin qarşısını almaqdır.

---

* ***qaçqın*** – irqinə, dininə, milliyyətinə, müəyyən sosial qrupa mənsubluğuna və s. görə təqib olunduğu üçün öz ölkəsini tərk etmiş şəxs

* ***köçkün*** – ölkəsi daxilində bir yerdən başqa yerə köçməyə məcbur edilmiş şəxs



**Araşdırın:**

Müasir dövrdə uşaqların daha çox hansı hüquqları pozulur?

**Məhkəmə və Ombudsman.** Məhkəmə hakimiyyəti qanunların aliliyini qoruyur. Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir. Hüququ pozulmuş şəxslər məhkəməyə müraciət edirlər. Məhkəmə işə baxaraq ədalətli qərar çıxarır.

Dövlətimiz insanların hüquqlarının qorunması üçün Ombudsman, yəni insan hüquqları üzrə ***müvəkkil**** vəzifəsi də təsis etmişdir. Ombudsman parlament tərəfindən seçilir və fəaliyyətində tam müstəqildir. O, qanun pozuntularının aradan qaldırılması üçün vətəndaşlarla dövlət arasında vasitəçi rolunda çıxış edir. Ombudsmanın əsas iş üsulu vətəndaşların ərizə və şikayətlərini araşdırmaqdır. Bu zaman onun bütün sənədlərlə tanış olmaq, vəzifəli şəxslərdən və vətəndaşlardan izahat almaq hüququ vardır. Araşdırma nəticəsində hüquq pozuntusu ortaya çıxarsa, Ombudsman vətəndaşın hüquqlarının bərpası üçün müvafiq orqanlara müraciət edir.

İnsan hüquqlarının qorunması yalnız dövlət təşkilatlarının işi deyil. Hər bir ölkədə insan hüquqlarının qorunması üçün çalışan ***qeyri-hökumət təşkilatları**** da olur.

---

****müvəkkil*** – bir işi görmək üçün hüquq verilmiş şəxs

****qeyri-hökumət təşkilatı*** – hökumət orqanlarına aid olmayan təşkilat

Respublikamızda Uşaq Qaynar Xətt Xidməti (Tel.: (012) 480-22-80) fəaliyyət göstərir. Uşaqlar «Qaynar Xətt»ə zəng edərək onları narahat edən mövzu haqqında danışa bilərlər.

**Sual və tapşırıqlar:**

1. Cəmiyyətdə insanların hüquqlarının qorunması üçün ən böyük məsuliyyət kimin üzərinə düşür?
2. İnsan hüquqlarının qorunmasına xidmət edən hansı dövlət təşkilatlarını tanıyırsınız? Bu təşkilatlar haqqında məlumat tərtib edin.
3. «Qaynar Xətt»ə hansı hallarda müraciət etmək olar? Nümunələr göstərin.
4. «Mən öz hüquqlarımı necə qorumuşam» – həyatınızdan misallar gətirin.
5. 1, 2 və 3-cü şəkillərdən birini seçin və orada əks olunan problemlə bağlı kiçik hekayə yazın.

# 5. İNSAN HÜQUQLARINI QORUYAN BEYNƏLXALQ TƏŞKİLATLAR



***Beynəlxalq təşkilatlar insan hüquqlarının qorunması işini necə həyata keçirirlər?***



1.

BMT-nin rəmzi

**İnsan hüquqlarını qoruyan ən böyük beynəlxalq təşkilat – Birləşmiş Millətlər Təşkilatı.** 1945-ci ildə dünyanın aparıcı ölkələri Birləşmiş Millətlər Təşkilatını (BMT) yaratdılar. Bu təşkilatın əsas vəzifəsi insan hüquq və azadlıqlarının müdafiəsinə yönəlmişdir. BMT-də xüsusi komissiya *«İnsan hüquqları haqqında Ümumi **Bəyannamə**»** işləyib hazırladı. Bu Bəyannamənin qəbul edildiyi gün, yəni dekabrın 10-u hər il dünyada İnsan Hüquqları günü kimi qeyd olunur. Sonrakı illərdə BMT irqi ayrı-seçkiliyə qarşı mübarizəyə yönəlmiş beynəlxalq sənəd – ***Konvensiya**** qəbul etdi. Bu Konvensiyada dərisinin rənginə görə insanlara fərq qoymaq, onları sıxışdırmaq kimi hərəkətlər pislənir. Konvensiyaya dünyanın bir çox dövlətləri qoşulmuşdur.



2.

BMT-nin baş ofisi ABŞ-ın Nyu-York şəhərində yerləşir

*İrqi ayrı-seçkilik özünü nədə büruzə verir?*

BMT-nin müxtəlif məsələlərlə məşğul olan təşkilatları var. Məsələn, onun UNIFEM təşkilatı qadın, UNICEF təşkilatı isə uşaq məsələləri ilə məşğul olur. BMT qadın və uşaqların hüquqlarının müdafiəsinə yönəlmiş sənədlər qəbul etmişdir.

Azərbaycan dövləti BMT-nin qəbul etdiyi «İnsan hüquqları haqqında» Ümumi Bəyannaməyə və insan hüquqları sahəsində əsas konvensiyalara qoşulmuşdur.



3.

UNICEF bizim hüquqlarımızı müdafiə edir

***bəyannamə** – beynəlxalq hüquqi sənəd
***konvensiya** – dövlətlər arasında bağlanan müqavilə



**Araşdırın:**

Azərbaycan dövləti UNICEF-lə birlikdə hansı layihələri həyata keçirmişdir?

**Avropa Şurası və insan hüquqları.** İnsan hüquqlarının müdafiəsi ilə bağlı fəaliyyət göstərən beynəlxalq təşkilatlardan biri də Avropa Şurasıdır. Avropa Şurası 1949-cu ildə yaradılmışdır. Təşkilatın əsas prinsipləri insan hüquqlarının müdafiəsi, demokratiya, qanunun aliliyi, Avropanın inkişafı və s -dir. Avropa Şurası çərçivəsində qəbul edilən mühüm sənədlər arasında «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası» əsas yer tutur. Bundan başqa, Avropa Şurası insan hüquqlarına dair Avropa Sosial ***Xartiyası**** adlı sənəd qəbul etmişdir. Dünya ölkələrində insan hüquqlarının qorunmasında bu sənədlərin əhəmiyyəti böyükdür.

Avropa Şurasına daxil olmaq istəyən dövlətlərə bu sənədləri imzalamaq təklif olunur. Dövlətlər bu sənədləri imzalayır və öz ölkələrində sənəddə göstərilən insan hüquqlarını müdafiə etməyi öhdələrinə götürürlər. Beynəlxalq təşkilatlar bu yolla insan hüquqlarının qorunması üçün dövlətlərə təsir göstərir. Onların qəbul etdiyi beynəlxalq sənədlər dövlətin öz vətəndaşı ilə istədiyi kimi rəftar etməsinə və onun hüquqlarını pozmasına imkan verməməyə yönəlmişdir.




4.

*Avropa Şurasının rəmzi*




5.

*Avropa Şurasının baş ofisi Fransanın Strasburq şəhərində yerləşir*

**Avropa Məhkəməsi.** Hüquqları dövlət tərəfindən müdafiə olunmayan şəxslər şikayətlə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət edə bilərlər. Avropa İnsan Hüquqları Məhkəməsi (qısaca, Avropa Məhkəməsi) insan hüquq və azadlıqlarını qoruyan beynəlxalq qurumdur.

Avropa Məhkəməsi 1959-cu ildə yaradılmışdır. Şikayətlə Avropa Məhkəməsinə müraciət etmək üçün

---

****xartiya*** – ictimai-siyasi sənəd

*Sizcə, dünya ölkələri insan müdafiəsində nə üçün birləşmişlər?*

6.




*Avropa Məhkəməsinin rəmzi*



7.

*Avropa Məhkəməsinin baş ofisi Fransanın Strasburq şəhərində yerləşir*

*Beynəlxalq təşkilatların insan hüquqlarının müdafiəsində rolunu necə qiymətləndirirsiniz?*

müəyyən qaydalara əməl etmək lazımdır. Məsələn, əgər Azərbaycan Respublikasının vətəndaşı Avropa Məhkəməsinə şikayət etmək istəyirsə, o, əvvəlcə Azərbaycanda dövlətin bütün hüquq-mühafizə vasitələrindən yararlanmağa çalışmalıdır. Yəni hüquqları pozulmuş hər bir şəxs əvvəlcə öz ölkəsində hüquq-mühafizə orqanlarına müraciət etməlidir. Əgər öz ölkəsində vətəndaşın şikayəti rədd edilərsə, o, Avropa Məhkəməsinə müraciət edə bilər.

Beynəlxalq təşkilatlar insan hüquqlarının qorunmasında ölkədə fəaliyyət göstərən hökumət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edirlər. Onlar birgə layihələr hazırlayır və həyata keçirirlər. Beynəlxalq təşkilatlar son illərdə ölkəmizdə təhsil sahəsində çoxsaylı birgə layihə həyata keçirmişlər. BMT-nin «Davamlı insan inkişafı», UNESCO-nun «Qardaşlaşmış məktəblər» layihələri bunlara misal ola bilər.

## Sual və tapşırıqlar:

1. BMT-nin yaradılmasının nə kimi faydası oldu?
2. Azərbaycanda beynəlxalq təşkilatların fəaliyyəti haqqında məlumat hazırlayın.
3. Beynəlxalq təşkilatlar insan hüquqlarının qorunması üçün dövlətlərə hansı yolla təsir edir?
4. Azərbaycan dövlətinin BMT-nin qəbul etdiyi «Uşaq Hüquqları Konvensiyası»na qoşulması nəyi göstərir?
5. UNIFEM hansı məqsədlə yaradılmışdır?
6. Avropa Məhkəməsinə kimlər müraciət edirlər?

## 6. ÜNSİYYƏT MƏDƏNİYYƏTİ



*İnsanlar nə üçün salamlaşırlar?*
*«Salam» sözü nəyi ifadə edir?*

Salam!



**İnsanın ünsiyyət ehtiyacı.** Yer üzərindəki canlıların yaşamaq üçün torpağa, havaya, suya, işığa, qidaya ehtiyacı var. Canlılar içərisində insan yeganə varlıqdır ki, onun həm də mənəvi ehtiyacları olur. Çünki insan düşünür, yaradır, danışır və ünsiyyətə ehtiyac hiss edir.



*İnsan nə üçün ünsiyyətsiz yaşaya bilmir?*

İngilis yazıçısı Daniel Defonun «Robinzon Kruzo» adlı məşhur bir romanı vardır. Romanda göstərilir ki, uzaq səfərə çıxmış bir gəmi fırtınaya düşüb qəzaya uğrayır. Həmin vaxt gəmidə olan Robinzon Kruzo adlı dənizçi ölümdən qurtulur və 28 il naməlum bir adada yaşamalı olur. O, çox çətinliklə yaşayış üçün zəruri vasitələr əldə edir. Özünə koma tikir, taxıl əkir, bir keçi tutub əhliləşdirir.



1.

Robinzon ilk vaxtlar həyatda qaldığına görə sevinsə də, bir qədər sonra özünü çox bədbəxt hiss edir. Çünki təklik onu sıxır. Sevincini, kədərini bölən həmsöhbəti olmadığı üçün həyatdan zövq almır. Nəhayət, günlərin birində Robinzon vəhşi qəbiləyə əsir düşmüş bir insanı əsirlikdən və ölümdən xilas edir. Bu hadisə həftənin cümə günü baş verdiyinə görə o, yeni tanışını Cümə adlandırır. Robinzon Cüməyə ingilis dilində danışmağı öyrədir və onunla dost olur.



*Siz bu əsər haqqında nə bilirsiniz?*

Dünyagörüşü, dərisinin rəngi, dini etiqadı eyni olmasa da, Cümə ilə rastlaşandan sonra Robinzon özünü tənha hiss etmir. Çünki artıq özü kimi şüurlu bir varlıqla ünsiyyət saxlayır, işləri onunla birlikdə görür.



2.

Ünsiyyətsiz qalmağın çətinliyini təsəvvür etmək üçün bir anlıq düşünün ki, siz gün ərzində heç kimlə danışmırsınız. Səhər yataqdan qalxandan axşam yatana kimi susursunuz. Yəqin ki, bu sizin üçün o qədər də asan və maraqlı olmaz. Çünki normal halda insan evdə ailə üzvləri, məktəbdə müəllim və şagird yoldaşları ilə danışmaq istəyir. Lakin ünsiyyət yalnız danışmaq deyil. Mədəni ünsiyyətin qaydaları vardır.

**Ünsiyyətin qaydaları.** Ünsiyyət insanlar arasında informasiya mübadiləsi, onların bir-birini anlamasıdır. Şirindil, doğruçu, xoşrəftar, gülərüz, səxavətli olmaq, qonaq getmək, qonaq qəbul etmək və s. kimi xüsusiyyətlər xoş ünsiyyət yaratmağa kömək edir. Hər bir insanın davranışı və danışıq tərzi onun əxlaqının, dünyagörüşünün, mədəni səviyyəsinin göstəricisidir. İnsan var ki, danışmağı sevir, lakin başqalarını dinləmək mədəniyyəti yoxdur. Bəziləri isə ünsiyyətdə etik normalara əməl etmir, zarafatları yerinə düşmür, həmsöhbətinin xətrinə dəyir.

*Cəmiyyətdə uğur qazanmaqda ünsiyyətin rolunu necə qiymətləndirirsiniz?*

*Ünsiyyətdə mimika və jestlərin əhəmiyyəti nədir?*

Uzunçuluq, nəzakətsizlik və lovğalıq insanlar arasında soyuqluq yaradır. Odur ki, uğurlu ünsiyyət qurmaq istəyən hər kəs ünsiyyət mədəniyyətinə malik olmalıdır.

İnsan bir məclisə daxil olanda salam verməlidir. Bu, mədəniyyət, mehribanlıq əlamətidir və adət-ənənəyə hörmət etməkdir. İnsanların tanımadan belə bir-birinə salam verməsi bəzən çox uğurlu ünsiyyətin əsasını qoyur. İnsan bununla özünə dost, həmkar qazanır. Ayrılarkən xudahafizləşmək isə insanlar arasında xoş münasibəti qorumağa kömək edir.



3.



4.

*Səhər qarşınıza qaşqabaqlı bir insan çıxarsa, hansı hissləri keçirərsiniz?*

Ünsiyyətdə əsas rolu nitq oynayır, amma mimika, jestlər, işarələr də çox əhəmiyyətlidir. Mimika və jestlər ünsiyyəti daha təsirli edir. Lakin onlardan yerində istifadə etməyi bacarmaq lazımdır. Yaxşı fikri də xoşagəlməz intonasiya və mimika ilə çatdıranda, mənfi emosiya doğura bilər. Məsələn, birinə təşəkkür edərkən üzünü turşutmaq, qaşlarını çatmaq, dodağını büzmək qarşıdakı insanda yaxşı hislər doğurmaz. Salamı, təşəkkürü, təbriki və bu kimi xoş sözləri təbəssümlə, gülər üzlə söyləmək lazımdır. Salamlaşıb hal-əhval tutarkən elə etməlisiniz ki, müsahibiniz sizin səmimi hislərinizi duysun. Başqa sözlə, hər bir mədəni insan normal ünsiyyətin qaydalarını bilməlidir. Bu qaydalara aşağıdakılar daxildir:

1. Ünsiyyətdə olduğunuz insanla onun maraqlandığı mövzuda danışmaq;
2. Onu diqqətlə dinləmək;
3. Onun sözünü kəsməmək;
4. Danışığında əmr intonasiyasından qaçmaq;
5. Uzunçu olmamaq;
6. Qışqıra-qışqıra danışmamaq;
7. Danışarkən əl-qol atmamaq.

*Yaxşı ünsiyyət qurmaq üçün siz daha nələri təklif edərdiniz?*

*«Siz» və «sən» müraciət formalarından necə istifadə etmək düzgündür?*

Biz doğma, yaxın münasibətdə olduğumuz insanlara «sən» deyə müraciət edirik. Lakin yad adamlara və yaşlı insanlara belə müraciət hörmətsizlik sayılır. Ona görə də biz onlara «siz» deyə müraciət edirik. «Siz» müraciət forması hörmət və ehtiram ifadə edir.

**Araşdırın:**



Ən çox ünsiyyətdə olduğunuz insanların adlarını yazıb siyahı tərtib edin. Özünüz üçün aydınlaşdırmağa çalışın: bu insanlarla ünsiyyətə nə üçün ehtiyac duyursunuz?

**Müasir dövrün ünsiyyət vasitələri.** Müasir dövrdə ünsiyyət saxlamağın çox yolu var. İnternet resurslarından istifadə etməklə uzaq məsafədən belə ünsiyyət qurmaq mümkündür. Müxtəlif görüntülü proqramlar vasitəsilə bir-birindən çox uzaqda yaşayan insanlar hər gün görüntülü danışa bilirlər. İnsanlar bu vasitələrin köməyi ilə dünyanın müxtəlif ölkələrində



5.

*müasir dövrdə ünsiyyət*

*«Uzaq qohumdansa, yaxın qonşu yaxşıdır» atalar sözünün mənasını necə açıqlamaq olar?*

*«Elə ünsiyyət saxla ki, dostları düşmən, düşmənləri dost etməyəsən». Böyük yunan alimi Pifaqor bu kəlamı ilə nə demək istəmişdir?*

yaşayan həmfikirləri və həmkarları ilə tanış olur, onlarla əlaqə qururlar. Bu isə onlardan daha çox bilik və bacarıqlara yiyələnməyi tələb edir. İnsanlar daha çox dil bilmək, daha çox kompüter proqramları öyrənmək istəyirlər. Çünki bunsuz daim inkişaf edən dünya ilə ayaqlaşmaq mümkün deyil. İndi cəmiyyət həyatının, demək olar ki, bütün sahələrində kompüter texnologiyaları tətbiq olunur. Lakin internetin, uzaq məsafələri yaxınlaşdıran texnika və texnologiyaların yaratdığı imkanlara baxmayaraq, canlı ünsiyyəti heç nə əvəz etmir. İnsanın həmişə canlı ünsiyyətə ehtiyacı var. Canlı ünsiyyətdə qazanılan vərdiş və bacarıqlar daha etibarlı, daha sınanmış olur.

## Sual və tapşırıqlar:

1. Ünsiyyət nə üçün lazımdır?
2. «Söz qılıncdan itidir», yaxud «Qılınc yarası sağalar, söz yarası sağalmaz» atalar sözlərinin mənasını izah edin.
3. Ən yaxın bildiyiniz insana sizi başa düşdüyünə görə minnətdarlıq məktubu yazın.
4. «Dostlarımla ünsiyyətdə hansı çətinliklər yaranır? Bu çətinliklərin səbəbini nədə və ya kimlərdə görürəm» adlı gündəlik yazın.

## 7. MƏNƏVİ SAĞLAMLIQ

*Yarış iştirakçısı qaçışı dayandırıb yolu keçən qocaya kömək edir.*



***Siz idmançının bu hərəkətini necə qiymətləndirirsiniz?***


1.

**Əxlaqın əsas göstəriciləri.** Mənəvi sağlamlıq insanın əxlaqı ilə sıx bağlıdır. Başqa sözlə, əxlaq insanın mənəvi sağlamlığının göstəricisidir.

Əxlaqın mühüm göstəricilərindən biri intizamdır. İntizam yaşından asılı olmayaraq, hər kəsin özünün özünə şüurlu rəhbərliyidir. İntizamlı insan öz şəxsiyyətinə hörmət edir. Kiminsə onu danlamasına imkan yaratmır. Bir yerə gedərkən gecikməməyə çalışır. Bu isə insanın məsuliyyətli olduğunu göstərir.


*İnsan özündə intizamı necə formalaşdıra bilər?*

Əxlaqlı insan əməyə və əmək adamlarına şüurlu münasibət bəsləyir. O, əməyi sevir, işində yaradıcı olur, bütün əmək növlərinə hörmət edir. Öz əmək fəaliyyətinə vicdanla yanaşır. Yəni öhdəsinə götürdüyü bütün işləri həmişə tam və səliqə ilə yerinə yetirir.


*Əməyi sevməyən insan başqalarının əməyini qiymətləndirə bilərmi?*

Əxlaqın göstəricilərindən biri də humanizmdir. Humanizm insanpərvərlikdir. Humanizm dedikdə insanlara qarşı diqqətli olmaq, onlara kömək etmək, heç kimin qəlbinə dəyməmək və s. keyfiyyətlər başa düşülür. Humanist insanlar başqalarına hörmətlə yanaşırlar. Onlar yüksək ünsiyyət mədəniyyətinə malik olur, insanlara yuxarıdan aşağı baxmırlar.

**Mənəvi sağlamlıq və özünütərbiyə.** Mənəviyyatlı insan cəmiyyətdə qəbul olunmuş əxlaq normalarına əməl edir. Çünki o yaxşı bilir ki, cəmiyyətdə bir çox münasibətlər qanunlarla yox, etik və əxlaq normaları ilə tənzimlənir. Mənəviyyatı sağlam olan insan çətin şəraitə düşdükdə də öz keyfiyyətlərini itirmir. O, həmişə yaxşılıq etməyə hazır olur. Yaxşılıq etdiyi birindən pislik görsə belə insanlara münasibəti dəyişmir. Heç zaman pisliyə pisliklə cavab vermir. O öz yüksək keyfiyyət və qabiliyyətlərini inkişaf etdirməyə çalışır.

**Araşdırın:**



Özünüz haqqında fikirləşin: sizi digərlərindən hansı keyfiyyətlər fərqləndirir? Sizcə, hansı keyfiyyətlərinizdən azad olmalısınız?

*Əxlaq normaları ilə qanunları nə fərqləndirir?*

*Mənəviyyatlı olmağın göstəriciləri hansılardır?*

Mənəviyyatlı insan ətrafında olan hər kəsə yaxşı nümunələrlə təsir göstərir. Onunla ünsiyyətdə olan insanlar da onun kimi olmaq istəyirlər.

Mənəvi sağlamlıq ətrafında baş verən hadisələrə insanın ədalətli, qərəzsiz və dürüst münasibətidir. Mənəvi sağlamlıq ***nəfsinə**** uymamaq, ona qalib gəlməyi bacarmaqdır.

Görkəmli Azərbaycan filosofu Nəsirəddin Tusi deyirdi ki, insanın mənəvi ehtiyacları onun ağlı, şüuru və iradəsi ilə idarə edilir. Hər kəsin xoşbəxtlik və bədbəxtliyinin açarı onun ağıl və iradəsinin ixtiyarına verilmişdir. Əgər insan məqsədəuyğun hərəkət etsə, tədricən elmə, mədəniyyətə, biliklərə yiyələnsə, istedadı artaraq onu ucalara qaldırar. Lakin o, cilovu öz nəfsinin ixtiyarına versə, nəfsi onu heyvani mərtəbəyə endirər. Yuxarıdan düşən daş kimi az bir müddət ərzində aşağı yuvarladar.

**Özünüinkişafda təhsilin rolu.** Özünütərbiyənin yolu özünüinkişafdan keçir. İnsan hüquqları haqqında sənədlər də insanların özünüinkişafı üçün şərait yaradılmasını nəzərdə tutur. Demokratik cəmiyyətdə dövlət öz vətəndaşlarına şərait yaratmağı öhdəsinə götürür. Çünki ölkənin inkişafı vətəndaşların özünüinkişafından çox asılıdır.

Özünüinkişaf geniş anlayışdır. Bura insanın fiziki imkanlarının, peşə vərdişlərinin, elmi biliklərinin, mənəviyyatının və s. yüksəldilməsi daxildir. Müasir dövrdə hər şey inkişafdadır. Elmdə, incəsənətdə, idmanda və digər sahələrdə yeniliklər baş verir. İdmançılar daha yüksək nəticələr göstərmək üçün daim məşq edirlər. Peşəsini sevən insanlar öz peşələrində baş verən yenilikləri izləyir və öyrənirlər. Elm də durmadan inkişaf edir. Alimlər kəşflər və ixtiralar edirlər. Bu yeniliklər həyatımızı dəyişir. Özünüinkişaf olmadan bütün bunlar mümkün olmazdı.

Təhsil insanların özünüinkişafı üçün ən səmərəli vasitədir. Azərbaycanda ümumi orta təhsildə uşaqların hərtərəfli inkişafının bütün şərtləri nəzərə alınmışdır. Məsələn, «Ədəbiyyat» fənni şagirdləri yüksək fikir və ideyalar təbliğ

* ***nəfs*** – şiddətli istək, meyil, tamah

edən bədii nümunələrlə tanış edir. Bu dərslər yaxşı ədəbiyyatın mütaliəsi üçün şagirdlərə bələdçilik edir.

Musiqi və təsviri incəsənət dərsləri şagirdləri gözəl sənət əsərləri, dünya şöhrətli bəstəkar, rəssam və heykəltəraşlarla tanış edir. Bu fənlər həm də musiqi və rəsm əsərlərinin mahiyyətini anlamağa yardım göstərir. Başqa sözlə, şagirdlərin zövqünü inkişaf etdirir, onların gözəllik duyğusunu gücləndirir. Bütün fənlər uşaqların hərtərəfli şəxsiyyət kimi yetişmələrinə yönəlmişdir. Öz dərslərinə ciddi yanaşan hər bir şagirdin bu imkanlardan yararlanmağa çalışması onun özünüinkişafı deməkdir.



2.

*gənclərin yaradıcılıq festivalında*


3.

Vətəndaşların təhsil hüququnu təmin edən Azərbaycan dövləti uşaq və gənclərin özünüinkişafı üçün lazım olan hər cür şəraiti yaratmışdır. Ölkəmizin bütün regionlarında gənclər üçün yaradıcılıq mərkəzləri, idman kompleksləri tikilib istifadəyə verilmişdir. Bu mərkəzlərin və komplekslərin qapıları bütün vətəndaşlara açıqdır. Ölkəmizdə mütəmadi olaraq uşaqlar üçün yaradıcılıq müsabiqələri, bilik olimpiadaları təşkil edilir. Özünü yoxlamaq istəyən hər kəs bu sınaqlarda iştirak edə bilər.

*Şəxsiyyətin formalaşmasında mütaliənin rolunu necə qiymətləndirirsiniz?*

## Sual və tapşırıqlar:

1. «Mənəviyyatsızlıq» nə deməkdir? Fikrinizi nümunələrlə izah edin.
2. Yüksək mənəviyyata malik olan qəhrəmanlar haqqında hansı əsərləri oxumusunuz? Onları nə üçün yüksək mənəviyyatlı hesab edirsiniz?
3. Sevdiyiniz filmin, yaxud bədii əsərin fikir və davranışlarınıza təsiri barədə esse yazın.
4. Cədvəli dəftərinizə çəkib işləyin:

| **Mənəviyyat** | |
|---|---|
| müsbət təsirlər | mənfi təsirlər |
| | |

# 8. MƏNƏVİ BORC



*İnsanın ailəsi və vətəni qarşısında mənəvi borcu nədir?*

**Ailə qarşısında mənəvi borc.** Uşaq dünyaya gəldiyi gündən ailə qayğısı ilə əhatə olunur. O, boy atdıqca bu qayğı da böyüyür. Uşaqların qayğısını çəkib onları boya-başa çatdırmaq ata-ananın borcudur. Uşaqların borcu isə valideynlərinin bu qayğısını qiymətləndirməkdir. Bütün ailə üzvləri bir-birinə hörmət etməli, bir-birinin qayğısını çəkməlidirlər. Bu, valideyn, övlad, qardaşlıq və bacılıq borcudur. Üzvlərinin bir-birinə qayğı göstərdiyi ailə uşaqların sağlam böyüməsi və yaxşı tərbiyə alması üçün ən münasib mühitdir.

Hər ailənin öz qayda-qanunları olur. Yaxşı ənənələr, adətlər, qayda-qanunlar ailənin mənəvi dəyərləridir. Ailələr bu dəyərləri, həyat tərzini və tərbiyə üsulunu qoruyaraq nəsildən-nəslə ötürür. Bəzən peşə və məşğuliyyətlər də ailənin gənc üzvləri tərəfindən davam etdirilir. Ailəsinin ənənələrini qorumaq və davam etdirmək hər bir ailə üzvünün mənəvi borcudur.

*Ailəsi üçün yaxşı övlad olmağın cəmiyyət üçün əhəmiyyəti nədir?*


1.

*Hacıbəyovlar ailəsi.*
*Şuşa, 1915-ci il*

Ailənin, nəslin şərəfi onun hər bir üzvünə aiddir. İnsan yaxşı əməli ilə öz ailəsinin adını ucaldır. Ailədə, hətta nəsildə onunla fəxr edirlər. Üzvlərindən biri pis bir iş görəndə isə ailə üzvlərinin hamısı utanıb xəcalət çəkir. Ona görə də insan ailəsinin adını ucaltmağı, onun şərəf və ləyaqətini qorumağı özünə borc bilməlidir.

Hacıbəyovlar nəsli Azərbaycanın, Qarabağın qədim və tanınmış soylarındandır. Hacıbəyovların ulu babası Molla Hacı bəy Qarabaği Şuşa şəhərində sayılıb-seçilən, savadlı bir alim

idi. Azərbaycan mədəniyyətinin inkişafı üçün çalışmaq Hacıbəyovların ailə ənənəsinə çevrilmişdi. Bu nəslin yetirmələri Zülfüqar, Üzeyir, Soltan, Niyazi, Çingiz, İsmayıl Hacıbəyovlar və başqa tanınmış musiqi xadimləri Azərbaycan musiqisini inkişaf etdirərək dünyaya tanıtmışlar. Üzeyir Hacıbəylinin qardaşı Ceyhun Hacıbəyov isə dövrünün tanınmış jurnalisti idi.

*Siz Hacıbəyovlar haqqında nə bilirsiniz?*

**Cəmiyyət qarşısında mənəvi borc.** İnsan varlıqların ən mükəmməli və ağıllısıdır. Bu keyfiyyətləri sayəsində o, cəmiyyət yaradıb, onu özünün yaratdığı qanunlarla idarə edir. Zaman keçdikcə bu qanunları mükəmməlləşdirir. Elmi və təcrübəsi artdıqca o, təbiətə hakim olmağa çalışır, yer üzündə mövcud olan varlıq və hadisələrdən faydalanmaq istəyir. Bu məsələdə insanlar bir-birindən fərqlənirlər. İnsan var ki, yalnız özünü düşünür və öz mənafeyini güdür. Vətənini, millətini sevən insan isə çalışır ki, onun fəaliyyəti yalnız özünün deyil, vətəninin inkişafına istiqamətlənsin.



**Araşdırın:**
Öz ailə ənənələriniz barədə məlumat toplayıb təqdim edin.

*Sizin cəmiyyət qarşısında borcunuz nədən ibarətdir?*

Vətənini sevən onun üçün faydalı olmağa çalışan insan, ilk növbədə, mütləq düzgün peşə seçməlidir. Elə bir peşə ki, həmin peşə ilə həm özünə, həm də cəmiyyətə fayda verə bilsin. Düzgün peşə seçmək üçün isə o, arzu və istəkləri ilə yanaşı, həm də özünün fiziki və əqli imkanlarını nəzərə almalıdır. Seçdiyi peşəni ürəkdən sevib onun sirlərini öyrənməli və həmişə öz üzərində çalışmalıdır.

Vətəninin ictimai, siyasi həyatında bacardığı kimi iştirak etmək də insanın mənəvi borcudur. O, vətənində baş verən dəyişikliklərə laqeyd yanaşmamalıdır.

İnsan vətəninin adını və şərəfini daim uca tutmalıdır. Əcnəbi ölkələrdə olarkən vətənini təmsil etdiyini unutmamalıdır. Çalışmalıdır ki, hərəkətləri, davranışları ilə öz xalqı, vətəni barədə yaxşı təəssürat yaratsın. Ölkəsini bacardığı qədər təbliğ etsin, onu dünyada tanıtmaq üçün əlindən gələni əsirgəməsin. Belə insan vətənpərvərdir. Vətənpərvərlik insanın yaşadığı, fəaliyyət göstərdiyi torpağa məhəbbəti, onun düşmənlərinə qarşı barışmazlığıdır.

*Siz necə insana vətənpərvər deyirsiniz?*

*Düzgün peşə seçmək nə deməkdir?*

**Şəxsiyyətin özü qarşısında mənəvi borcu.** İlham Zəkiyev azərbaycanlı cüdoçudur. O, iki dəfə ***Paralimpiya**** oyunları, iki dəfə dünya, beş dəfə Avropa çempionu olmuşdur. İlham Zəkiyev Qarabağ müharibəsi əlilidir. 18 yaşında hərbi xidmətə yollanarkən İlham artıq gələcəyi olan bir idmançı kimi diqqəti cəlb etmişdi. Məşqçiləri ona böyük ümidlər bəsləyirdilər.

1999-cu ildə İlham erməni snayperinin açdığı atəş nəticəsində yaralandı. Başından aldığı güllə yarasından görmə qabiliyyətini itirdi. Həkimlərin səylərinə baxmayaraq, gözləri açılmadı. İlk vaxtlar o, çətin vəziyyətə düşdü, bir daha çox sevdiyi idmanla məşğul ola bilməyəcəyini düşünüb kədərləndi. Amma ailəsinin və yaxın dostlarının dəstəyi İlhamı ruhdan düşməyə qoymadı. O, yenidən məşqlərə başladı. Davamlı məşqlər öz nəticəsini verdi. İlham Zəkiyev dünya miqyaslı yarışlarda çıxış edib, dalbadal qələbələr qazandı.


2.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İlham Zəkiyevi qələbə münasibətilə təbrik edir*

Çətinlik qarşısında ruhdan düşməmək, qabiliyyət və istedadının məhv olmaması üçün çalışmaq şəxsiyyətin özü və vətəni qarşısında mənəvi borcudur. İlham Zəkiyevin həyatı buna yaxşı sübutdur. Bütün vətənpərvər Azərbaycan övladları kimi İlham Zəkiyev də qələbələrini vətəninə həsr edir. O öz uğurları ilə Azərbaycanın idman şərəfini qoruyur. Görmə qabiliyyətini itirməsinə baxmayaraq, İlham Zəkiyev bu gün də vətəninə xidmət edir.

*İlham Zəkiyevin hansı xüsusiyyətləri çətin vəziyyətdə ona kömək etdi?*

---

***paralimpiya** –* əlil idmançıların olimpiya oyunları

**Sual və tapşırıqlar:**

1. «Mənəvi borc» ifadəsini necə başa düşürsünüz?
2. Valideynlərin və övladların bir-biri qarşısında mənəvi borcu nədən ibarətdir?
3. Hər bir insan yalnız özü üçün yaşasaydı, cəmiyyətin həyatı necə olardı?
4. Siz ailə və cəmiyyət qarşısında borcunuzu hansı fəaliyyətlərinizlə yerinə yetirə bilərsiniz?

## 9. DİN VƏ CƏMİYYƏT



***Din və cəmiyyət anlayışlarının bir-biri ilə necə əlaqəsi var?***




*Azərbaycanda əhali tarixboyu hansı dinlərə etiqad edib?*

**Dinlərin ümumi dəyərləri.** Bizim eranın əvvəllərində qədim Azərbaycanın bəzi yerlərində, xüsusilə cənub ərazilərində insanlar Zərdüşt dininə etiqad edirdilər. Zərdüştiliyin dini kitabı «Avesta» adlanırdı. «Avesta»da dünyada iki qüvvə mövcuddur. Bunlardan biri xeyir, digəri isə şərdir. Müqəddəs kitab öyrədirdi ki, xeyiri seçmək və şərə qarşı mübarizə aparmaq hər bir insanın borcu olmalıdır. Zərdüşt dininə etiqad edənlər inanırdılar ki, həyatın əsasını od, su, torpaq və hava təşkil edir. Onlar bu dörd ünsür içərisində odu ən müqəddəs qüvvə hesab edirdilər. Oda sitayiş edir, qarşısında dua oxuyur və onun şərəfinə qurbanlar verirdilər. Atəşgahlar tikir, orada od yandırır və həmin odu sönməyə qoymurdular. Azərbaycanda atəşgah məbədləri bu gün tarixi abidə kimi qorunur.


1.

*Suraxanı atəşgahı*

Sonralar xristianlıq yarandı və Azərbaycanın kiçik bir ərazisində yayıldı. Daha sonra isə islam dini meydana gəldi. Azərbaycanda yaşayan əhalinin əksər hissəsi islam dinini qəbul etdi. Müasir Azərbaycanda müsəlmanlarla birgə yəhudilər və xristianlar da dinc, yanaşı yaşayır. Yəhudilik, xristianlıq və islam insanları əxlaqlı, mərhəmətli olmağa, elm öyrənməyə, sülhə və barışığa səsləyir. Yəhudi ruhaniləri – ravvinlər yəhudiləri Musa peyğəmbərin təbliğ etdiyi dəyərləri qorumağa çağırırlar. Musa peyğəmbər deyirdi: «Sən göyə baxıb Günəşi, Ayı, ulduzları görəndə elə düşünmə ki, onlar yalnız sənindir, çünki Rəbbin onları göy altında olan bütün xalqlar üçün yaratmışdır».

Xristian keşişləri xristianları İsa peyğəmbərin insanları sevmək nəsihətinə əməl etməyə səsləyirlər. İsa peyğəmbər öyrədirdi: «Öz qonşunu sev və öz düşməninə nifrət et» deyildiyini eşitmisiniz, fəqət mən sizə deyirəm: düşmənlərinizi də sevin!»




*Dinin təsiri altında cəmiyyətdə hansı dəyişikliklər baş verir?*

İslam dini də insanlar arasında sülh, mehribanlıq təbliğ edir. İslam dininə görə etiqad etdiyi dindən asılı olmayaraq Allaha inanan hər kəs imanlı insandır. İslamın müqəddəs kitabı «Qurani-Kərim»in Əl-Bəqərə surəsində deyilir: «Ey iman gətirənlər, hamınız bir yerdə sülhə gəlin!»

**Din və dövlət.** Din cəmiyyətin iqtisadi, siyasi və mədəni həyatına təsir göstərib onu dəyişdirmək gücünə malikdir. Tarixboyu bunu başa düşən hökmdarlar dini qəbul edərək onu dövlətin dininə çevirmişlər. Avropa ölkələrində kilsələr və din başçıları böyük nüfuza malik idilər. Onlar dövlətin siyasətinə, insanların yaşam tərzinə güclü təsir göstərirdilər. Kilsənin təbliğ etdiyi qaydalara əməl etməyənlər ciddi cəza alırdılar.

Ərəblər geniş əraziləri əhatə edən böyük imperiya yaratmışdılar. Ərəb xilafəti müsəlman dövləti idi. Bu imperiyaya daxil olan torpaqlarda yaşayan insanların çox böyük qismi islamı qəbul edib müsəlman olmuşdu. İnsanlara əxlaq və düzgün davranış qaydaları təlqin edən islam geri qalmış ölkələrin həyatında dirçəliş yaratdı. Din cəmiyyətdə insanların bir-birinə münasibətinin tənzimlənməsində böyük rol oynadı. İslamın qəbulundan sonra valideynlər, qadınlar, uşaqlar, qohum və qonşularla rəftarın islama uyğun yeni qaydaları müəyyənləşdi. İnsanlar məişətdə və iş həyatlarında münasibətlərini dinin təbliğ etdiyi kimi qururdular. Tacirlər ticarət etməyin islamda müəyyən

**Araşdırın:**

Hansısa bir dini bayramın yaranması və mərasim qaydaları haqqında məlumat toplayın.



2.

*Ayasofiya kilsə-muzeyindən görünüş*

olunmuş qaydalarına əməl edirdilər. Dinlər adət-ənənələrə təsir edirdi. Müxtəlif ölkələrdə yaşayan, eyni dinə etiqad edən insanlar arasında oxşar adətlər yaranırdı. Bu, xalqları bir-birinə yaxınlaşdırırdı.

**Din və mədəniyyət.** Dinin təsiri altında mədəniyyət də inkişaf edirdi. Bir çox Avropa ölkələrində gözəl memarlıq abidələri inşa olunurdu. Bu abidələrin içərisində kilsələr xüsusi yer tuturdu. Kilsələrin tavan və divarlarında rəssamlar Bibliya hekayətlərinin süjetlərinə rəsmlər çəkirdilər. Bu əsərlər indi də öz gözəlliyi ilə insanları valeh edir. Avropanın bir çox ölkələrindəki nadir kilsələr, Türkiyənin İstanbul şəhərindəki Ayasofiya kilsə-muzeyi turistlərin ən çox can atdığı görməli yerlərdəndir.



3.

*Sultan Məhəmməd. «Peyğəmbərin meracı*»*

Şərqdə müsəlman alimləri dünya elminə böyük töhfələr verdilər. Müsəlman ölkələrində, o cümlədən Azərbaycanda gözəl məscidlər, minarələr, türbələr inşa olundu. Xəttatlıq sənəti geniş yayıldı. Memarlıqda və ədəbiyyatda xəttatlığın gözəl nümunələri yarandı. Orta əsr miniatür sənətinin inkişafına da islam dininin böyük təsiri oldu.

Dinlər müasir dövrdə də cəmiyyətin həyatına təsir göstərir.



4.

*xəttatlıq sənətinin nümunəsi – daş üzərində yazılar. Şirvanşahlar sarayı. Bakı*

***merac** – islamda Peyğəmbərin Allahla danışmaq üçün göyə qalxması

**Sual və tapşırıqlar:**

1. Din cəmiyyətə necə təsir edir?
2. Dinlər insanı nəyə yönəldir?
3. «Din və elm: dünən, bu gün, sabah» mövzusunda məqalə yazın.
4. Dinin təsiri altında yaranmış daha hansı abidələri və incəsənət əsərlərini tanıyırsınız?

## 10. DİNİ ETİQAD AZADLIĞI



*«Dini etiqad azadlığı» nə demək dir?*

Dini rəmzlər



*yəhudilik xristianlıq islam* **1.**

**Dinlər və onların yayılması.** Dünyada müxtəlif dinlər yayılmışdır. Yəhudilik, xristianlıq və islam təkallahlı dinlərdir. Bu dinlərə görə, Allah sözünü insanlara çatdırmaq üçün öz bəndələri arasından peyğəmbərlər seçmişdir. Bu peyğəmbərlər hər yerdə Allahın kəlamlarını təbliğ etmişlər. Kəlamlar sonradan yazıya alınmış, dinlərin müqəddəs kitablarına çevrilmişdir.

*«Təkallahlı din» nə deməkdir?*

*Müxtəlif dini etiqadları bir-birinə nə yaxınlaşdırır?*

Məzmununa görə dinlər bir-birinə yaxın olsalar da, bəzi xüsusiyyətləri ilə bir-birindən fərqlənirlər. Xristianlıq və islam dininə etiqad edənlərin sayı digər dinlərə nisbətən daha çoxdur.

| Dinin adı | Peyğəmbəri | Müqəddəs kitabı | İbadət yeri |
|---|---|---|---|
| Yəhudilik | Musa | «Tövrat» | Sinaqoq |
| Xristianlıq | İsa | «İncil» | Kilsə |
| İslam | Məhəmməd | «Qurani-Kərim» | Məscid |

*Bir ölkədə müxtəlif etiqadlı insanların yanaşı yaşamasının əhəmiyyəti nədir?*

Amerikada, Avropada xristianlıq, Şərq ölkələrində isə islam geniş yayılmışdır. Amma həm Şərq, həm də Avropa ölkələrinin hər birində başqa dinlərə etiqad edən insanlar da yaşayırlar. Məsələn, İranda, Türkiyədə müsəlmanlar sayca üstünlük təşkil edirlər. Müsəlmanlarla yanaşı, bu ölkələrdə xristianlar, yəhudilər və digər etiqad sahibləri də yaşayırlar. Yaxud Gürcüstanda, Rusiyada əhalinin çoxu xristiandır. Amma həmin ölkələrdə müsəlmanlar və başqa dini etiqadlı insanlar da az deyil. Hər dinin müqəddəs günləri və bayramları vardır. Öz dini bayramlarını keçirməkdə hər bir şəxs sərbəstdir. İnsan hüquqlarını qorumağı öhdəsinə götürən hər bir dövlət vətəndaşların etiqadına və onların dini bayramlarına hörmətlə yanaşır.

| Müqəddəs günlər | | | Müqəddəs bayramlar |
|---|---|---|---|
| Yəhudilikdə | Şənbə günü | Bu gündə yəhudilər işləmirlər, dini ayinlər yerinə yetirir və Allaha dualar edirlər. | Yəhudilər hər il yazda müqəddəs Pasxa bayramını qeyd edirlər. |
| Xristianlıqda | Bazar günü | Xristianlar kilsəyə gedərək dua edirlər. | Xristianlar hər il yazda müqəddəs Pasxa bayramını qeyd edirlər. İsa peyğəmbərin Mövludu gününü qeyd edirlər. |
| İslamda | Cümə günü | Müsəlmanlar məscidlərə gedir, namaz qılır və Allaha dualar edirlər. | Ramazan bayramı, Qurban bayramı və Məhəmməd peyğəmbərin Mövludu müsəlmanların müqəddəs bayramlarıdır. |

**Azərbaycan tolerant* ölkədir.** Azərbaycan müxtəlif dini etiqad sahiblərinin dinc yanaşı yaşadığı ölkələrdən biridir. Vətəndaşlarının əksəriyyətini müsəlmanlar təşkil etsə də, dövlətimiz ölkəmizdə olan digər dinlərə də qayğı göstərir. Respublikada məscid, kilsə, sinaqoq və digər ibadət yerləri fəaliyyət göstərir.


2.
*Sinaqoq. Quba*


3.
*Müqəddəs Məryəm kilsəsi. Bakı*


4.
*Bibiheybət məscidi. Bakı*

***tolerantlıq** – fərqli dinə, irqə, millətə və s. qarşı dözümlülük

*Bizim ölkədə müxtəlif dinlərə münasibət necədir?*

*Dinindən asılı olmayaraq, insanlar nə üçün bir-birinə qarşı tolerant olmalıdırlar?*

Azərbaycanın dövlət başçısı müsəlmanların Ramazan, Qurban, xristianların Pasxa bayramlarında dövlət televiziyası vasitəsi ilə dindarları təbrik edir. Azərbaycanda əhalinin 90%-dən çoxunun müsəlman olması nəzərə alınaraq Ramazan və Qurban bayramları qeyri-iş günləri elan edilir.

**Araşdırın:**



Yaşadığınız yerdə (şəhər, kənd) olan ibadət yerləri, onların yaranma tarixi barədə məlumat toplayın.

Mömin insanlar bütün dinlərə hörmət edirlər. Dinindən asılı olmayaraq, bütün insanlar bir-birinə qarşı tolerant yanaşmalıdırlar.



5.

*dini tolerantlığın simvolu*

BMT yer üzündə dinclik və əmin-amanlıq naminə dünya ölkələrində yaşayan müxtəlif dilə, irqə, dinə mənsub olan insanları qarşılıqlı anlaşmaya çağırır. Bu məqsədlə hər il 16 noyabrın qarşılıqlı anlaşma və xalqların milli müxtəlifliyi günü kimi qeyd olunması təklif edilmişdir.

16 noyabr bütün dünyada Beynəlxalq Tolerantlıq Günü kimi qeyd olunur.

**Sual və tapşırıqlar:**

1. Müxtəlif dini etiqadlardan olan nümayəndələrin münasibətlərində nə kimi çətinliklər ola bilər?
2. İnsanlar nə üçün bir-birinin dininə hörmət etməlidirlər?
3. Dini jurnal üçün «Azərbaycan tolerant ölkədir» adlı məqalə yazın.
4. Tolerantlıq günü dini etiqad azadlığı ilə necə əlaqəlidir?

# 11. MADDƏ VƏ CİSİM



*Şəkildə gördüklərinizi necə qruplaşdıra bilərsiniz?*



1.

**Cisim və maddənin fərqi.** Biz saysız-hesabsız varlıqlarla əhatə olunmuşuq. Ulduzlar, Günəş, planetlər, Ay və yer üzündəki cansız və canlı hər şey fiziki cisimdir. Bütün fiziki cisimlərin sxemdə göstərilən xüsusiyyətləri var.




Məsələn, şüşə maddədir. Şüşədən hazırlanmış stəkan isə cisimdir. Qızıl maddədir, qızıldan hazırlanmış bilərziyə isə biz maddə deyil, cisim deyirik. Yaxud mərmər maddə, mərmərdən tikilən bina isə cisimdir və s. Maddənin müəyyən şəkil almış halına cisim deyilir.

Eyni cismi müxtəlif maddələrdən hazırlamaq olar. Məsələn, borunu dəmirdən, şüşədən, alüminiumdan və başqa maddələrdən hazırlayırlar. Yaxud eyni maddədən müxtəlif cisimlər düzəltmək mümkündür. Məsələn, şüşədən qrafin, stəkan, cürbəcür fiqurlar və s. istehsal etmək olar.

Maddələri, onların xüsusiyyətlərini öyrənən elm ***kimya*** adlanır.

Adi şəraitdə maddələr bərk, maye və qaz halında olur. Bundan başqa, maddənin 4-cü halı da mövcuddur ki, buna onun plazma halı deyilir. Məsələn:

| Bərk | Maye | Qaz | Plazma |
|---|---|---|---|
| dəmir | su | oksigen | alov |
| alüminium | süd | hidrogen | Günəş |
| qızıl | civə | azot | ulduzlar |
| kükürd və s. | spirt və s. | xlor və s. | şimşək və s. |


2.

bərk cisim


3.

maye


4.

qaz

*Bu maddələrin fərqini necə izah edə bilərsiniz?*

Bütün maddələr adi gözlə görünməyən zərrəciklərdən ibarətdir. Maddələrin zərrəcikləri daim qarşılıqlı əlaqədə və hərəkətdədir. Bərk maddələrin zərrəcikləri bir-birinə çox yaxın yerləşir və onlar arasında əlaqə güclü olur. Ona görə də bərk maddələr forma və həcmini sabit saxlayır. Mayelərin hissəcikləri bərk maddələrə nisbətən sıx yerləşmir. Onlar arasındakı əlaqələr də bərk maddələrdəki qədər güclü deyil. Bu səbəbdən mayelərin forması olmur. Mayelər hansı qaba tökülürsə, o qabın formasını alır.

*Sizcə, bu şəkillərdən hansı bərk, hansı maye, hansı isə qazların daxili quruluşunu göstərir?*


5.

Qazlarda hissəciklər arasındakı məsafələr mayelərdə olduğundan daha çoxdur. Ona görə də qazlar istənilən qədər genişlənə və sıxıla bilir. Aralarındakı əlaqələr çox zəif olduğu üçün onlar yerlərini sərbəst surətdə dəyişirlər.



**Təcrübə edin:**

1 stəkan suyun bir haldan başqa hala keçməsini təcrübədə yoxlayın. Təcrübənin gedişini izah edin.

**Maddə halının dəyişməsi.** Su adi şəraitdə asanlıqla bir qabdan başqa qaba boşalan şəffaf mayedir. Amma qızdıranda buxara, soyudanda isə buza çevrilir. Buna suyun ***aqreqat halları*** deyilir. Suyun təbiətdə üç aqreqat halı mövcudur.

Maddələri qızdırmaq, yaxud soyutmaqla onların aqreqat halını dəyişmək mümkündür. Deməli, temperaturun dəyişməsi maddəyə təsir göstərir və onun aqreqat halını dəyişir.


6.

*mayenin bərk hala keçməsi – buz*


7.

*qazın maye halına keçməsi – maye oksigen*

*Bu sxemi necə izah edə bilərsiniz?*




*Temperaturun dəyişməsi ilə cisim nə üçün bir haldan başqa hala keçir?*

Maddənin qızdırılması, yaxud soyudulması onun zərrəciklərinin hərəkətinə təsir edir. Temperatur artanda zərrəciklərin hərəkəti sürətlənir. Nəticədə onlar arasındakı əlaqə zəifləyir və zərrəciklər bir-birindən aralanır. Soyutduqda isə əksinə, zərrəciklərin hərəkəti zəifləyir və aralarındakı əlaqə güclənir. Buna görə də temperaturun dəyişməsi maddənin aqreqat halının dəyişməsinə səbəb olur.

Maddənin plazma halı təbiətdə mövcuddur. Süni yolla plazma halını əldə etmək üçün isə maddəni çox yüksək temperatura qədər qızdırmaq lazımdır. Bu çox yüksək temperaturdur. Belə yüksək temperatur yalnız laboratoriyalarda, yaxud sənaye obyektlərində xüsusi məqsədlər üçün istifadə edilir.

## Sual və tapşırıqlar:

1. «Dərsə gedən bir uşaq» misrası M.Ə.Sabirin hansı şeirindəndir? Şeirdə bəhs olunan hadisələrin mənasını izah edin.
2. Adi halda maddələrin bərk, maye, qaz və plazma halında olması nə ilə bağlıdır?
3. Dəftərinizə cədvəl çəkin və sizə tanış olan maddələrin adlarını yazın.
4. Maddənin aqreqat hallarının xüsusiyyətlərini cədvəldə yazın.

| Bərk | Maye | Qaz | Plazma |
|---|---|---|---|
| | | | |

## 12. SAF MADDƏLƏR VƏ QARIŞIQLAR



*Bu maddələr bir-birindən hansı xüsusiyyətləri ilə fərqlənir?*



*qrafit* *kükürd tozu* *dəmir tozu* **1.**

**Maddələrin xüsusiyyətləri.** Təbiətdə mövcud olan maddələr rəng, qoxu, dad və başqa xüsusiyyətləri ilə bir-birindən fərqlənir. Məsələn**,** kükürd tozu ilə dəmir tozunun fərqli xüsusiyyətləri vardır.

| Dəmir tozu | Kükürd tozu |
|---|---|
| tünd-bozdur | açıq-sarı rəngdədir |
| suyun dibinə çökür | suyun üzündə qalır |
| maqnit parçasını yaxınlaşdıranda ona yapışır | maqnit parçasını yaxınlaşdıranda ona yapışmır |



**2.**

*limonlu çay*

Şəkər şirin, ağ rəngli, suda yaxşı həll olan maddədir. Oksigen rəngsiz, iysiz və dadsız qazdır. Alüminium gümüşü-ağ rəngli yüngül metaldır.

Bizi əhatə edən ətraf aləmdə maddələrin hamısı ***saf**** halda deyil. Təbiətdə maddələr daha çox qarışıq haldadır. Torpaq, su, hava müxtəlif maddələrin qarışığından ibarətdir.



*Qarışıqda iştirak edən maddələrdə hansı dəyişikliklər baş verir?*

**Təcrübə edin:**



2 stəkan su götürüb birinə şəkər, birinə duz qarışdırın. Şəkərin və duzun miqdarını artırmaqla suyun dadında baş verən dəyişikliyin səbəbini izah edin.

Qarışıqlar ən azı iki maddədən əmələ gəlir. Qarışığın tərkibindəki maddələrin hər biri öz fərdi xüsusiyyətini saxlayır. Məsələn, südlü qəhvəni içərkən ağzımızda süd, qəhvə və şəkərin dadını hiss edirik. Qəhvə tozunun

***saf** – tərkibi təmiz olan, heç bir qarışığı olmayan

və şəkərin miqdarından asılı olaraq qəhvə içkisi şirin, yaxud acı, tünd, yaxud açıq rəngli olur.

*Bu nə üçün belə olur?*

Çaya qarışdırılmış şəkər, suda həll edilmiş duz da öz xüsusiyyətlərini itirmir və biz onların dadını qarışıqda hiss edirik.

Havanın tərkibində olan qazlar da hər biri öz xüsusiyyətini saxlayır. Yalnız müxtəlif şəraitdə onların havanın tərkibindəki həcmi dəyişir. Məsələn, təmiz havada oksigenin miqdarı çirkli havaya nisbətən daha çox olur. Ətir vuranda onun qoxusu havaya qarışıb ətrafa yayılır. Qoxunun tündlüyü vurulan ətirin miqdarından asılı olur.

Maddələrin öz xüsusiyyətini saxlaması insanlara onları qarışıqlardan ayırıb öz məqsədləri üçün istifadə etməyə imkan verir. İnsanlar maddələri zavodlarda xüsusi emal prosesindən keçirərək bir-birindən ayırır, lazım olan mineralları, metalları və qazları alırlar.

*Maddələrin öz xüsusiyyətini saxlamasının əhəmiyyəti nədir?*

Kənardan baxmaqla stəkandakı suyun şirin, yaxud adi su olmasını söyləmək çətindir. Çünki şəkər suda elə həll olur ki, onun hissəciklərini adi gözlə, yaxud böyüdücü cihazla görmək olmur. Amma qəhvə tozu belə deyil. Bu xüsusiyyətinə görə qarışıqlar eynicinsli və müxtəlifcinsli olmaqla iki yerə ayrılır. Eynicinsli qarışıqlar tək bir maddə kimi görünür. Müxtəlifcinsli qarışıqların ayrı-ayrı maddələrdən ibarət olması isə dərhal məlum olur. Çünki bu qarışıqlar tək bir maddə kimi görünmür.

Maddənin bütün aqreqat hallarının: bərk, maye və qazların həm eynicinsli, həm də müxtəlifcinsli qarışıqları var.

| Bərk cisimlərin bir-biri ilə qarışığı |
|---|
| polad |
| çuğun və s. |

| Mayelərin bərk cisimlərlə qarışığı | Mayelərin mayelərlə qarışığı |
|---|---|
| şirin çay | süd |
| dəniz suyu və s. | neft-su və s. |

| Qazların bərk cisimlərlə qarışığı | Qazların mayelərlə qarışığı | Qazların qazlarla qarışığı |
|---|---|---|
| hava-toz | müxtəlif qazlı sular | hava-xlor |
| hava-kül və s. | | hava-kükürd qazı və s. |



3.

**Suspenziya və emulsiya.** Maye qarışıqlar suspenziya və emulsiyalara ayrılır. Bəs emulsiya və suspenziyanın fərqi nədir?

Suspenziya maye ilə bu mayedə həll olmayan, yaxud çox az həll olan bərk maddələrdən ibarətdir. Emulsiya isə bir-birində həll olmayan, yaxud çox pis həll olan mayelərin qarışığıdır.


4.

*süd – emulsiya*

Emulsiyanı və suspenziyanı təşkil edən maddələr öz xüsusiyyətlərini saxlayır. Təbaşir tozunu suya qarışdıranda suspenziya əmələ gəlir. Gili suda həll edəndə alınan məhlul da suspenziyadır.

Emulsiyaya südü misal göstərmək olar. Süd bizə hamar, eynicinsli maye kimi görünür. Əslində isə o, suyun içərisinə səpələnmiş olduqca kiçik süd damcılarından ibarətdir.



**Təcrübə edin:**

İçərisində ılıq su olan 2 stəkandan birinə qatılaşdırılmış süd, digərinə təbaşir tozu töküb qarışdırın. 1 saat sonra stəkanlardakı mayelərin vəziyyətini yoxlayın. Baş verən hadisənin mahiyyətini izah edin.



**Qarışıqların ayrılması.** Bəzi qarışıqların tərkibindəki maddələrin hissəcikləri bir-birindən asanlıqla ayrılır. Məsələn, maqnit parçası vasitəsilə dəmir və kükürd tozu qarışığında dəmiri asanlıqla kükürddən ayırmaq olur. Maqnit parçası dəmiri çəkir və kükürd tozundan ayırır.



5.

*dəmir və kükürd tozlarının ayrılması*

Bir çox qarışıqdakı maddələri isə bir-birindən ayırmaqdan ötrü xüsusi proseslər baş verməlidir. Müxtəlifcinsli qarışıqları ayırmaq üçün onları duruldur, süzür, maqnitlə təsir edirlər. Eynicinsli qarışıqlar isə buxarlandırma, kristallaşdırma və s. kimi proseslərin köməyi ilə ayrılır. Məsələn, duzlu suda duzu sudan ayırmaq üçün suyu buxarlandırmaq lazımdır.



6.

*maye qarışıqların ayrılması*

Suspenziyalarda bərk maddənin hissəcikləri emulsiyaya nisbətən daha böyük olur və tez bir zamanda qabın dibinə çöküb mayedən ayrılır.

Emulsiyada isə mayelərin hissəcikləri bir-birindən suspenziyaya nisbətən gec ayrılır.

## Sual və tapşırıqlar:

1. Bərk, maye və qaz halında olan qarışıqlara aid nümunələr göstərin.
2. Qarışıqları hansı üsullarla ayırmaq olur?
3. İnşaatda hansı qarışıqlardan istifadə edilir?
4 Eynicinsli və müxtəlifcinsli qarışıqlar bir-birindən necə fərqlənir?
5. Müxtəlif maddələrdən qarışıqlar hazırlayın və bu qarışıqların oxşar və fərqli cəhətlərini göstərin.

## 13. MADDƏLƏRİN YARANMASI



*Bu sxemi necə izah edə bilərsiniz?*




1.

**Bəsit və mürəkkəb maddələr.** Kainatdakı sayı-hesabı bilinməyən maddələr necə yaranır? Bu maddələr karbon, hidrogen, oksigen, azot və s. ***kimyəvi elementlərin*** atomlarının birləşməsindən yaranır. ***Atom*** elementlərin bütün xassələrini özündə daşıyan ən kiçik hissəciyidir. O qədər kiçik ki, onu adi işıqda və adi mikroskop vasitəsilə görmək mümkün deyil. Atomları yalnız çox güclü mikroskoplarla izləmək olur.

Maddələr çox müxtəlifdir. Onların bəziləri eyni, bəziləri isə müxtəlif elementlərin atomlarından əmələ gəlir. Eyni elementin atomlarından yaranan maddələrə saf, yaxud *bəsit maddələr*, bir neçə elementin atomlarından yaranan maddələrə isə *mürəkkəb maddələr* deyilir. Məsələn, havadakı oksigen saf maddədir. Onun yaranmasında iki, yaxud üç oksigen atomu iştirak edir. Su isə mürəkkəb maddədir. O, iki müxtəlif elementin atomundan yaranmışdır. Bunlar hidrogen və oksigen atomlarıdır.




2.

*iki və üçatomlu oksigen*




3.

*su molekulunun quruluşu*

Xüsusiyyətlərinə görə bəsit maddələr *metallara* və *qeyri-metallara* bölünür. Civədən başqa, bütün metallar adi şəraitdə bərk halda olur. Metallar elektrik cərəyanını və istiliyi yaxşı keçirir. Qeyri-metallar isə adi şəraitdə qaz, maye və bərk haldadır. Onlar istiliyi və elektrik cərəyanını pis keçirir, yaxud heç keçirmir.

Mürəkkəb maddələrə *kimyəvi birləşmələr* də deyilir. Mürəkkəb maddələr *qeyri-üzvi* və *üzvi birləşmələrə* ayrılır. Qeyri-üzvi birləşmələrin yaranmasında, əsasən, az sayda atom iştirak edir.

| **Bəsit maddələr** | **Mürəkkəb maddələr (kimyəvi birləşmələr)** |
|---|---|
| mis *(metal)* | su *(qeyri-üzvi)* |
| civə *(metal)* | xörək duzu *(qeyri-üzvi)* |
| qızıl *(metal)* | çay sodası *(qeyri-üzvi)* |
| fosfor *(qeyri-metal)* | şəkər tozu *(üzvi)* |
| yod *(qeyri-metal)* | yağlar *(üzvi)* |
| kükürd *(qeyri-metal)* və s. | limon turşusu *(üzvi)* və s. |

Qeyri-üzvi maddələrə nisbətən üzvi maddələr daha mürəkkəb quruluşa malikdir. Bəzi üzvi maddələrin yaranmasında yüz min, hətta daha çox sayda atom iştirak edir. Üzvi maddələrə zülallar, karbohidratlar (şəkər, nişasta və s.), yağlar, spirt, aseton və digərləri aiddir.




**4.** *üzvi maddələrin quruluşu*

Təbiətdəki varlıqlar canlı və cansızlara ayrıldığı kimi onları əmələ gətirən maddələr də fərqlidir. Cansız təbiət qeyri-üzvi maddələrdən, canlı təbiət isə üzvi maddələrdən təşkil olunmuşdur.



*Bu şəkildə təsvir olunanları necə izah edə bilərsiniz?*

**Fiziki və kimyəvi hadisələr.** Bizi əhatə edən aləmdə daim müxtəlif hadisələr baş verir. Məsələn, fəsillər dəyişir və buna uyğun olaraq su bir haldan başqa hala keçir. Duzlu göllər quruduqca suyun tərkibindəki duzlar ondan ayrılır. Bu hadisələrdə maddələr aqreqat halını dəyişsə də, yaxud qarışıqdan ayrılsa da, öz xüsusiyyətlərini saxlayır. Belə hadisələri fiziki hadisələr adlandırırlar. Fiziki hadisələrdə yeni maddələr yaranmır.

Təbiətdə daim yeni maddələrin yaranması ilə nəticələnən hadisələr də baş verir. Belə hadisələrə kimyəvi hadisələr, yaxud kimyəvi reaksiyalar deyilir.

**Təcrübə edin:**



1) Mis məftil götürüb onu alovda qızdırın.
2) Rəngi qaralmış metal pulu limon suyuna salın.
3) Duzu bir qabda odun üstünə qoyub qızdırın.

Təcrübələrinizin nəticələrini izah edin.

**Fiziki hadisələr**





**Kimyəvi hadisələr**



*yeni maddə*

5.

Bu hadisələri kimya elmi öyrənir.

Kimyəvi hadisələr zamanı maddələrin tərkibi və xassələri dəyişir. Bu isə yeni maddənin yaranması deməkdir. Yanma, çürümə, qıcqırma, paslanma və s. kimyəvi hadisələrdir.

Alimlər maddələrin sirlərini öyrəndikdən sonra yeni maddələr yaratmağa başladılar. Onlar kimyəvi reaksiyaların köməyi ilə bu gün də yeni maddələr yaratmaqda davam edirlər. Bunun üçün maddələrə elektrik cərəyanı, yüksək temperatur, işıqla və s. vasitələrlə təsir göstərirlər. Bu zaman maddələr onları təşkil edən elementlərə qədər parçalanır. Sonra bu elementlər yenidən birləşərək başqa birləşmələr, yəni yeni maddələr əmələ gətirir.

## Sual və tapşırıqlar:

1. Kimyəvi elementlər nədən ibarətdir?
2. Bəsit və mürəkkəb maddələr necə fərqlənir?
3. Mürəkkəb maddələri başqa cür necə adlandırırlar?
4. Üzvi və qeyri-üzvi maddələrə aid nümunələr göstərin.
5. Fiziki və kimyəvi hadisələrə aid nümunələr göstərin.

# 14. HƏRƏKƏT



*Şəkildə təsvir olunanlar hərəkət baxımından bir-birindən necə fərqlənir?*



1.

**Sükunət və hərəkət.** «Sükunət» «sükut, durğunluq, yerindən tərpənməmək» deməkdir. Sükunətin əksi olan vəziyyət ***hərəkətdir***. Hərəkət cismin sükunət halının pozulması, onun müəyyən zaman ərzində yerini dəyişməsidir.

*«Sükunət halı» nə deməkdir?*

*Hərəkət nədir?*

Hərəkət etməyən varlıqlar cansız cisimlərdir. Məsələn, dağlar, daşlar, dənizlər heç zaman yerini dəyişmir.

Bitkilər olduğu yerdə hərəkət edir: bitdiyi yerdə boy atıb müxtəlif istiqamətlərə doğru uzanır, daim günəşə doğru çevrilir.

Tam hərəkətli varlıqlar isə insanlar və heyvanlardır. Onlar istədikləri zaman bir yerdən başqa yerə hərəkət edirlər.

Əslində, cismin tam sükunət halı yoxdur. Bunu təsəvvür etmək üçün xəyalına hərəkətdə olan bir qatarı gətir. Qatarda oturmuş sərnişin qatara görə sükunətdə, yola görə hərəkətdədir. Bəs qatar dayansa, necə?

Yer planeti dayanmadan Günəşin ətrafında fırlanır, bu zaman onun üzərində olan hər şey, o cümlədən qatar da onunla birlikdə hərəkətdə olur. Deməli, varlıqlar yalnız bir-birinə nisbətən sükunətdə və hərəkətdə ola bilir. Sükunət və hərəkət nisbidir.

**Qüvvə**. Cisim sükunət halından öz-özünə çıxa bilməz. Hərəkətə gəlməsi üçün ona ***qüvvə*** təsir göstərməlidir. Bu qüvvənin təsiri ilə cisim hərəkət edərsə, yəni yerini dəyişərsə, bu zaman cisim hərəkət enerjisinə malik olur.



2.

*futbolçu topu sükunət halından çıxarır*

*Qüvvə ilə hərəkət arasında necə asılılıq vardır?*

Sükunət halından çıxan cisim düz istiqamətdə hərəkət edir, yaxud dönür. Bu hərəkət müəyyən



3.

*yeldəyirmanı*

*Külək enerjisini elektrik enerjisinə çevirmək üçün yeldəyirmanından istifadə edilir. Küləyin gücündən asılı olaraq yeldəyirmanının pərləri sürətlə, yaxud yavaş fırlanır.*

zaman müddətində davam edir: sürəti yavaş-yavaş azalır və o yenidən sükunət halına qayıdır. Cismi sükunət halından çıxaran qüvvə böyük olanda o daha böyük enerji ilə hərəkətə başlayır və daha uzun müddət hərəkət edir. Cismin yenidən sükunət halına qayıtması da nisbətən uzun çəkir.

Futbol oyununa başlayarkən futbolçu meydanın mərkəzində qoyulmuş topu ayağının zərbəsi ilə hərəkətə gətirir. Topun hərəkət sürəti vurulan zərbənin təsirindən asılıdır: yüngülcə itələyəndə top yavaş, bərk zərbə vuranda isə sürətlə hərəkət edəcəkdir.

Sən özün də futbol topunun, eləcə də yelləncəyi itələyən qüvvənin timsalında bunu yoxlaya bilərsən. Yelləncəyi itələyən qüvvə böyük olarsa, yelləncək daha yüksəyə qalxacaq və gec dayanacaqdır.



**Təcrübə edin:**

Kağızdan fırfıra düzəldin. Yavaş hərəkət edən və qaçan zaman fırfıranın necə fırlandığını müşahidə edin. Baş verən hadisənin mahiyyəti nədən ibarətdir?



**Kütlə və ağırlıq.** Futbol topu ilə voleybol topunun, eləcə də fırfıra ilə yeldəyirmanının ağırlığı eyni deyil. Ağırlığın müxtəlif olmasının səbəbi onların kütlələrinin fərqli olmasıdır. Elə bu fərqə görə, eyni qüvvənin təsiri ilə onların hərəkəti ayrı-ayrı olur. Voleybol topu futbol topuna görə daha sürətlə və uzağa gedir. Yaxud kağız fırfıranı yüngül külək hərəkətə gətirir. Həmin sürətlə əsən külək yeldəyirmanının ağır pərlərini yerindən tərpədə bilmir. Bu pərlərin hərəkətə gəlməsi üçün daha güclü külək əsməlidir. Dəmək, cismin kütləsi artdıqca, o ağırlaşır və onu sükunət halından çıxarmaq üçün, yəni hərəkətə gətirmək üçün daha böyük qüvvə sərf etmək lazım gəlir. Hərəkətə gələndə isə kütləsi kiçik olan cismin sürəti böyük,



*Kütlə ilə hərəkət arasında necə asılılıq vardır?*

kütləsi böyük olan cismin sürəti isə kiçik olur.



**Təcrübə edin:**
Maqnit parçasını əvvəlcə metal pula, sonra soyuducunun divarına yaxınlaşdırın. Müşahidələrinizi izah edin.

**Cazibə qüvvəsi.** Təbiətdəki bütün cisimlər daim qarşılıqlı təsirdədir. Bu təsir onların kütləsindən asılıdır. Cismin kütləsi böyük olanda o, ətrafdakı cisimlərə daha böyük qüvvə ilə təsir edir. Məsələn, Yerlə insan arasındakı qarşılıqlı təsirdə planetin kütləsi insanın kütləsindən dəfələrlə böyük olduğuna görə o, insana daha böyük qüvvə ilə təsir edir. Bu, yerin cazibə qüvvəsidir.



*Sizin kütləniz Yerin kütləsindən böyük olsaydı, sizcə, nə baş verərdi?*



4.

*Yerin cazibə qüvvəsi*

Yerin cazibə qüvvəsi bizim onun üzərində sərbəst hərəkətimizi təmin edir. Bu qüvvə indikindən az olsaydı, o zaman ayaqlarımız yerə toxunmazdı. Yaxud çox olsaydı, biz ağır hərəkət edər, yeriyərkən ayaqlarımızı yerdən çətinliklə ayırardıq. Yer səthindən müxtəlif hündürlükdə cismin ağırlığı yerin səthindəki ilə eyni olmur.

Ayın Yerin ətrafında fırlanması da Yerin cazibə qüvvəsi ilə bağlıdır. Ayın kütləsi Yerin kütləsindən xeyli kiçikdir. Ona görə də Ay Yerin cazibəsi ilə onun ətrafında fırlanır. Yerin cazibəsi ilə Yer kürəsi ətrafında fırlanan cismə Yerin təbii peyki deyilir. Ay Yerin təbii peykidir. Ayda cazibə qüvvəsi Yerdə olduğundan dəfələrlə azdır. Ona görə də insan ayda gəzərkən ayaqları güclə yerə dəyir və o, sanki, uçur. Onun kütləsi dəyişməsə də, ağırlığı yerdəki ilə eyni olmur. Ayda kosmonavtın ağırlığı Yerdəkindən altı dəfə azdır. Eyni bir cisim ayrı-ayrı planetlərə düşərsə, onun ağırlığı hər planetdə müxtəlif cür olacaqdır.

Yerin cazibə qüvvəsi olmasaydı, göydən yağmur yağmazdı. Bu qüvvə sayəsində yuxarı atılan hər hansı cisim yenə qayıdıb yerə düşür.




*Günəş, planetlər və digər göy cisimləri*

Bəs planetlər nə üçün Günəşdən aralanmır, yaxud ona yaxınlaşmırlar? Planetləri Günəşin ətrafında fırlanmağa məcbur edən hansı qüvvədir? Bu qüvvə Günəşin cazibə qüvvəsidir. Bu qüvvə planetləri bir an da olsa, dayanmadan Günəşin ətrafında hərəkətə məcbur edir və onların hər birini həmişə müəyyən məsafədə saxlayır. Çünki bütün planetlərin birlikdə kütləsi Günəşin kütləsindən təqribən 700 dəfə kiçikdir. Hansı cismin kütləsi böyükdürsə, onun cazibə qüvvəsi də böyük olur.

Günəşin cazibə qüvvəsi azalsa, Günəş sistemi pozular, Yer və digər planetlər kainata dağılıb hərəsi bir tərəfə gedərdi. Cazibə qüvvəsinin çox olması da Günəş sisteminin məhvinə səbəb olardı. Çünki o zaman planetlər Günəşə lap yaxınlaşar, yaxud ona yapışardı.

**Sual və tapşırıqlar:**

1. Qüvvə ilə hərəkət arasındakı asılılığa nümunələr göstərin.
2. Kütlə ilə hərəkət arasındakı asılılığı nümunələrlə izah edin.
3. Cazibə qüvvəsi nədir?
4. Cisimlər arasında qarşılıqlı təsir onların hansı xüsusiyyətindən asılıdır?

# 15. ENERJİ



*Bu şəklin mənasını necə izah edə bilərsiniz?*



*1.*

**Enerjinin formaları.** Günəş yeri işıqlandırır və isidir, bitkilər böyüyür, insanlar yaşayır və işləyirlər, avtomobillər hərəkət edir və s. Bütün bunlar enerji sayəsində baş verir. Enerji təbiətdə müxtəlif formalarda mövcud olur. Mexaniki, kimyəvi, istilik, işıq, elektrik və atom enerjisi onun əsas formalarıdır.

*Mexaniki enerji nədir?*

Əllərin üşüyəndə bir-birinə sürtsən, onların isindiyini hiss edəcəksən. Təcrübə göstərir ki, mexaniki iş görərkən həmişə cisimlərin səthi qızır. Bunu siz özünüz də təcrübədə yoxlaya bilərsiniz. Qədim insanlar iki daşı, yaxud iki odun parçasını bir-birinə sürtməklə od əldə edib, ocaq yandırırdılar. Cisimlərin iş görmək qabiliyyətinə ***enerji*** deyilir. Mexaniki enerjinin iki növü vardır: potensial və kinetik enerji. Bu iki anlayışın mahiyyətini başa düşmək üçün yenə yelləncək nümunəsinə müraciət edəcəyik. Yelləncəkdə oturan şəxsin daha sürətlə yellənməsi üçün nə edirik? Onu yelləncəklə birlikdə gücümüz çatan qədər geri çəkib sonra buraxırıq. Biz nə qədər çox geri çəksək, bir o qədər çox enerji toplanır və yelləncək bir o qədər sürətlə yellənir. Biz yelləncəyi geri dartdığımız zaman toplanan enerji *potensial enerji* adlanır. Yelləncək hərəkətə başlayanda potensial *enerji kinetik* enerjiyə çevrilir. Demək, kinetik enerji cismin hərəkəti ilə bağlıdır. Potensial enerji isə toplanmış ehtiyat enerjidir. İnsanlar enerjinin bu xüsusiyyətindən istifadə edərək elə mexanizm və maşınlar düzəldirlər ki, onlar iş görmək qabiliyyətini ehtiyat halında saxlaya bilsin. Məsələn, əllə qurulan saatlar, oyuncaqlar və s.



**2.**

*Şəkildəki vəziyyətində yelləncək potensial enerjiyə malikdir. O hərəkətə başlayarkən potensial enerji kinetik enerjiyə çevrilir.*



**Təcrübə edin:**

Saçlarınızı daraqla bir qədər daradıqdan sonra onu kağız qırıntılarına yaxınlaşdırın. Nəticəni izah edin.

**Enerji çevrilmələri**. Cisimlərin bir-birinə toxunması ilə mexaniki enerji istilik enerjisinə çevrilir. İki daşın, iki odun parçasının bir-birinə qarşılıqlı təsiri nəticəsində istilik enerjisi yaranır. Bizdən milyonlarla kilometr uzaqda olan Günəş Yeri işıqlandırır və qızdırır, yer üzündəki canlı və cansız təbiətə təsir edir. Günəş enerjisinin uzaq məsafədən gəlib yerə çatması şüalanma hadisəsi nəticəsində mümkün olur. Şüalanma enerjinin hərəkət formasıdır. Buna işıq enerjisi də deyilir.

Təbiətin ən əsas qanunlarından biri enerjinin saxlanması qanunudur. Enerji heç zaman yox olmur və yenidən yaranmır, o yalnız bir formadan başqa formaya keçir. Təbiətdə və ətrafımızda bütün hadisələr enerjinin bir formadan başqa formaya keçməsi sayəsində baş verir.

Canlı orqanizmlərin enerji mənbəyi onların qidasıdır. Yaşamaq, fiziki işlə, eləcə də yaradıcılıqla məşğul olmaq üçün insanların qidaya ehtiyacı vardır.

İstehsal edilən qida məhsullarını qablaşdırarkən paketin üzərində digər göstəricilərlə yanaşı, onların tərkibində olan enerjinin miqdarı da göstərilir. Bu, kimyəvi enerjidir. Qidaları qəbul edərkən onların tərkibində olan kimyəvi enerji orqanizmimizdə potensial enerjiyə, biz hərəkət edərkən isə kinetik enerjiyə çevrilir.

Yaxud avtomobilin hərəkət etməsi üçün onun bakında yanacaq olmalıdır. Avtomobilin mühərriki yanacağın kimyəvi enerjisini mexaniki enerjiyə çevirir və avtomobil hərəkətə gəlir.



3.

*Günəş Yerə ən yaxın ulduzdur. O, Yerdən 150 milyon kilometr məsafədədir. Günəşin işığı Yerə 8,5 dəqiqəyə gəlib çatır.*




4.

*Qidalar tərkibindəki enerjinin miqdarına görə fərqlənir. Bu enerji kkal (kilokalori) ilə ifadə olunur.*



5.

*elektrik enerjisi*

Biz telefonla danışarkən də buna bənzər hadisə baş verir. Telefon cihazı səsimizi elektrik enerjisinə çevirir. Tərəf-müqabilimizin telefon cihazı isə elektrik enerjisini yenidən səs enerjisinə çevirir və qarşı tərəf bizim söylədiklərimizi eşidir.



6. *istilik enerjisi*

Məişətdə istifadə olunan televizor cihazı da belə işləyir. Yayım zamanı görüntü – işıq və səs müxtəlif cihazlar vasitəsilə elektrik enerjisinə çevrilir. Televizor cihazı isə elektrik enerjisini işıq, səs enerjisinə və yenidən görüntüyə çevirir.



7. *atom enerjisi*

Maddəni təşkil edən atomların daxilində əlaqələr çox güclüdür. Atomlar parçalanan zaman çox böyük miqdarda işıq və istilik enerjisi azad olur. Bu enerji birdənbirə güclü axınla çıxsa və idarə oluna bilməzsə, dəhşətli partlayış törəyər, ətraf mühitə çox böyük ziyan dəyər. 1945-ci ildə Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə atılan atom bombalarının insanlara və ətraf mühitə vurduğu ziyan bu gün də unudulmayıb. Lakin məhdud miqdarda atom enerjisindən cəmiyyətin enerji ehtiyacları üçün istifadə etmək mümkündür. Bu enerjini atom elektrik stansiyalarında əldə edirlər.

## Sual və tapşırıqlar:

1. Təbiətdə mövcud olan enerji formalarına aid nümunələr göstərin.
2. Potensial və kinetik enerjinin oxşar və fərqli cəhəti nədir?
3. Təbiətdə enerji çevrilmələri nəyi sübut edir?
4. Aşağıdakı cədvəli dəftərinizə çəkin. Bu enerji formalarından harada istifadə olunduğunu araşdırın və sütunlara yazın.

| ENERJİ | | | | |
|---|---|---|---|---|
| mexaniki | kimyəvi | istilik | elektrik | atom |
| | | | | |

## 16. XARİCİ MÜHİT AMİLLƏRİ



*Şəkildəki ağacların fərqli görünüşdə olması nə ilə bağlıdır?*



1.

Fəsillər bir-birini əvəz etdikcə bitkilərdə baş verən dəyişiklikləri, yəqin ki, müşahidə etmisiniz. Baharda otlar cücərir, ağaclar tumurcuqlayır, çiçək açır, bar verir. Meyvə mövsümü bitəndən sonra ağacların bir çoxu yarpaqlarını tökür. Canlı təbiətin bu möcüzəsini biz hər il müşahidə edirik. Bütün bunlar xarici mühit amillərinin təsiri altında baş verir. Xarici mühit amillərinə işıq, temperatur, su, hava, torpaq və s. aiddir.



*Hansı iqlim amillərini tanıyırsınız?*



2.

**İşıq** canlıların həyatında böyük rol oynayır. Günəş enerjisinin təsiri altında bitkinin yarpaqlarında mürəkkəb proseslər baş verir. Bu zaman yarpaqlarda üzvi maddələr yaranır. Canlıların yaşaması üçün vacib olan oksigenin əmələ gəlməsi də işığın təsiri ilə yarpaqlarda baş verən **fotosintez*** prosesinin nəticəsidir.

**Temperatur** canlıların həyatında vacib amillərdən biridir. Bitkinin böyüməsi və inkişafı ilin yaz və yay fəsillərinə – havanın temperaturunun yüksəldiyi dövrə təsadüf edir. Temperatur aşağı olduqda bitkilərin normal inkişafı mümkün olmur.

**Təcrübə edin:**



İki banka götürüb ikisini də su ilə doldurun. Sonra iki baş soğanı kökləri aşağı olmaqla bankaların ağzına yerləşdirin. Bankalardan birini pəncərədə gün düşən yerə, digərini gün düşməyən yerə qoyun. Soğanları hər gün müşahidə edin, baş verən dəyişikliklərin səbəbini və onların fərqini izah edin.

---

***fotosintez** – yaşıl bitkilərdə yalnız işıqda baş verən, üzvi maddələr və oksigen əmələ gəlməsi ilə müşayiət olunan mürəkkəb proses

Temperaturun çox olması da bitkilərin inkişafına mənfi təsir göstərir. Bu zaman bitkilərin həyat qabiliyyəti aşağı düşür və bəzi bitkilər hətta quruya bilir. İlin isti fəsillərində heyvanlar da fəal olur, çoxalırlar.


3.

**Su.** Su canlıların böyüməvə inkişafında həlledici rol oynayır. İnsan orqanizminin 80%-ə qədəri sudan ibarətdir.

Torpaqda olan mineral maddələr suda həll olaraq bitkilərin kökləri vasitəsi ilə sorulur və bitkinin bütün orqanlarına çatdırılır. Bəzi bitkilər rütubəti sevir, bəzi bitkilər isə quraqlığa davamlı olur. Quraqlığadavamlı bitkilərdə bir sıra uyğunlaşmalar baş verir. Məsələn, kaktus bitkisinin gövdəsində su toplanır. Suyu az buxarlandırmaq üçün yarpaqları tikanlara çevrilir.

Bizi əhatə edən **hava** müxtəlif qazların və su buxarının qarışığından ibarətdir. Hava bitkinin böyümə və inkişafında böyük əhəmiyyətə malikdir. Hava kütlələrinin yerini dəyişməsi zamanı yaranan küləklər bir çox bitkilərin çiçəklərinin tozlanmasına, onun yaxşı meyvə bağlamasına kömək edir.



4.


5.

**Torpaq** bitkilərin həyat mənbəyidir. O, bitkini su, hava, istilik və digər zəruri amillərlə təmin edir. Bitkilərin yaxşı inkişaf etməsi üçün torpaq münbit olmalıdır. Belə torpaqda becərilən bitki uzunömürlü olur, yaxşı inkişaf edir, bol və yüksək keyfiyyətli məhsul verir. Əlverişsiz şəraitdə becərilən bitki isə az, keyfiyyətsiz məhsul verir, cırlaşır və tez tələf olur.


6.

Torpağın münbit olmasında soxulcanların, faydalı mikroorqanizmlərin və göbələklərin

də böyük rolu vardır. Soxulcanlar torpağı yumşaldır. Bu isə torpaqda havanın dövranına kömək edir və bitki qalıqlarının ona qarışmasını sürətləndirir. Torpaqda olan mikroorqanizmlər ölmüş bitki və heyvan qalıqlarını bitki üçün faydalı olan mineral maddələrə qədər parçalayır  və torpaq münbitləşir.




7. *torpaqda olan mineral maddələr*



8. *münbit torpaq*

**BİTKİLƏR ÜÇÜN ƏLVERİŞLİ MÜHİT**

**İQLİM**
- İşıq
- Temperatur
- Rütubət
- Hava
- Külək və s.

**TORPAQ**
- Oksigen, fosfor, kalium, azot, kükürd, maqnezium, dəmir birləşmələri
- Soxulcanlar
- Faydalı mikroorqanizmlər, göbələklər və s.

**İNSAN FƏALİYYƏTİ VƏ DİGƏR AMİLLƏR**

**Sual və tapşırıqlar:**

1. Fəsillərin dəyişməsi ilə əlaqədar  işıq rejiminin bitkilərə təsiri necə dəyişir?
2. Külək bitkilərin həyatında nə kimi rol oynayır?
3. Bitkilərin həyatı üçün əlverişli olmayan mühitdə bitən bitki haqqında məlumat toplayın və sinifdə yoldaşlarınızla bölüşün.

## 17. İNSANIN TƏBİƏTƏ TƏSİRİ



***Quşun bu vəziyyətə düşməsinin səbəbi nədir?***



1.

**Ətraf mühiti çirkləndirən amillər.** Havanın çirklənməsi dövrümüzün ən ciddi ekoloji problemlərindən biridir. Uzun illər insanlar müxtəlif məqsədlər üçün meşələri qırırmışlar. Yaşıllığın azalması atmosferdə oksigenin miqdarına ciddi təsir etmişdir. Digər tərəfdən, nəhəng istehsal müəssisələrinin fəaliyyəti zamanı atmosferə atılan zərərli qazlar, avtomobillərin sayının artması havanı çirkləndirmişdir.

Sənaye şəhərlərində hava digər yerlərə nisbətən daha çox çirklənir. Müəssisələrin işləməsi, nəqliyyatın hərəkəti nəticəsində yaranan tüstü və toz dumanla qarışır. Bu qarışıq səmada sis deyilən bulanıq pərdə əmələ gətirir.

Hər gün sənayedə, kənd təsərrüfatında, nəqliyyatda və digər sahələrdə çoxlu miqdarda enerji işlənir. Bu enerjinin əldə edilməsi də çox zaman havanın çirklənməsi ilə müşayiət olunur. İstilik elektrik stansiyalarında atmosferə zərərli neft tullantıları atılır. Atom elektrik



2.

*Nəqliyyatın çoxluğu havanı çirkləndirir.*



3.

*şəhər havasında sis*

stansiyaları isə, əslində, ciddi təhlükə mənbəyidir. Belə stansiyalarda qəza baş verərsə, çox geniş ərazidə yaşayan canlılar ziyan çəkər. Çünki bu stansiyalarda qəza zamanı radioaktiv şüalanma yaranır.

Yalnız hava deyil, torpaq və su da daim çirklənməyə məruz qalır. Bunun bir səbəbi kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını artırmaq üçün torpağa verilən kimyəvi gübrələrdir. Ziyanvericilərlə mübarizədə də kimyəvi maddələr tətbiq edilir. Həmin zərərli maddələr torpağa, suya qarışaraq onları çirkləndirir.

Ətraf mühiti çirkləndirən amillərdən biri də müxtəlif növ məişət tullantılarıdır. Bunların içərisində bərk tullantılar ətraf mühiti daha çox çirkləndirir.

**Təcrübə edin:**



Ağacların köməyi ilə havanın təmizliyini müəyyən edin. Bunun üçün məktəb bağı, həyətyanı sahə və yol kənarında bitmiş ağaclardan yarpaq qoparıb yapışqanlı lentin üzərinə yapışdırın. Sonra onları lentin üzərindən götürüb yerinə ağ kağız qoyun. Yarpaqların üzərinə toplanmış tozun miqdarını müqayisə edin. Bu nəyi göstərir?

**Ətraf mühitin çirklənməsinin canlılara təsiri.** İnsan ana bətnində olduğu andan başlayaraq həyatı boyu daim xarici mühitlə əlaqədə olur. Bu səbəbdən xarici mühitin təmizliyi insan orqanizminin normal inkişafı və sağlamlığı üçün çox vacibdir.

Havada oksigenin miqdarı az olduqda orqanizm normal fəaliyyət göstərə bilmir. Bu isə insanın iş və yaradıcılıq imkanlarını azaldır. Çirkli hava insanlarda tənəffüs yollarının müxtəlif xəstəliklərinə səbəb olur.

Torpaq bizim qidalarımızın əsas mənbəyidir. Çirklənmiş torpaqda bitən otların tərkibində zərərli maddələr toplanır və bu, ot vasitəsi ilə heyvanların orqanizminə keçir. Həmin heyvanların ətindən və südündən istifadə edən insan vaxt ötdükcə yavaş-yavaş zəhərlənməyə məruz qalır. Belə zəhərlənmə onun orqanizmində müxtəlif xəstəliklərin əmələ gəlməsinə səbəb olur.






**4.** *mutant meyvə-tərəvəz*

Radioaktiv şüalanma canlıların orqanizmində ağır xəstəliklər və qeyri-adi dəyişikliklər əmələ gətirir. Belə qeyri-adi canlıları elm aləmində ***mutant**** adlandırırlar.



**5.** *təbii resurslar*

**İnsanın təbiət qarşısında mənəvi borcu.** Xarici mühit amilləri daim bir-biri ilə əlaqədədir. Bu o deməkdir ki, amillərdən hər hansı birinin dəyişməsi digərlərinə də təsir göstərib onların dəyişməsinə səbəb olur və ətraf mühitdə ciddi ekoloji problemlər yaradır. Ona görə də insanlar mühit amillərinin dəyişməsinə laqeyd yanaşmamalıdırlar. Hər hansı bir layihəni həyata keçirərkən çox diqqətli olmalıdırlar. Sənaye müəssisələrini inşa etməzdən əvvəl onların fəaliyyəti nəticəsində ətraf mühitə dəyə biləcək ziyan barədə düşünməlidirlər. Ətraf mühitə ziyan vurmayan enerji mənbələrindən istifadəyə üstünlük verməlidirlər. Hazırda inkişaf etmiş ölkələrdə belə enerji mənbələrindən geniş istifadə olunur. İnsanlar küləkdən, yerin altından çıxan qaynar sulardan enerji əldə edirlər. İşıq və istilik toplayan günəş batareyaları da təbiətə ziyan verməyən enerji hasil etməyə imkan verir.

*Ətraf mühitə ziyan vurmayan başqa hansı enerji mənbələrindən istifadə etmək olar?*

Yaşıllığı qorumaq həyatı qorumaq deməkdir. Artıq insanlar bunu yaxşı bilirlər. Ona görə də dünyada milyonlarla insan «yaşıllar» hərəkatına qoşulur.

---

* ***mutant*** – dəyişiklik nəticəsində yaranan və normal tipdən fərqlənən forma



*İnsan necə edə bilər ki, onun fəaliyyəti təbiətə ziyan vurmasın?*




6.

«Yaşıllar» meşələrin qırılmasına, yaşıllığın azalmasına qarşı mübarizə aparırlar. Onlar qırılmış meşələri bərpa etmək üçün hamını yeni meşələr və yaşıllıq zolaqları salmağa çağırırlar.

Bizim Yer kürəsindən başqa planetimiz yoxdur. Yerin təbii ehtiyatlarının çoxu tükənəndir və tükənmək üzrədir. Təbiətə vurulan ziyanla mübarizə aparmaq üçün bütün dünya ölkələri birgə səy göstərməlidir. Təbiət dövlət sərhədləri ilə bölünmür. BMT-nin ətraf mühitin mühafizəsi ilə bağlı olan proqramlarının həyata keçirilməsində bütün ölkələr yaxından iştirak etməlidir.

Dünya dövlətləri və yer üzündəki insanlar təbiətə qayğı ilə yanaşsa, ətraf mühitdə bir çox problemlər yaranmaz. Gələcək nəsillər də havası, suyu, torpağı çirklənmiş, sərvətləri tükənmiş Yer kürəsində yaşamaq məcburiyyətində qalmaz. Biz təbii sərvətlərdən səmərəli istifadə etməklə yer üzündə həyatı qoruya bilərik.

## Sual və tapşırıqlar:

1. Havanın çirklənməsinə hansı amillər təsir edir?
2. Torpağın və suyun çirklənməsi hansı dəyişikliklərə səbəb ola bilər?
3. Mutant orqanizmlər hansı səbəbdən yaranır?
4. Ətraf mühiti çirkləndirən daha hansı mənbələri tanıyırsınız?
5. Xarici mühit amillərinin qarşılıqlı təsirinə aid nümunələr göstərin.
6. Təbiətdə çirklənmənin azalmasına nə kömək edə bilər?
7. Zənciri necə davam etdirmək olar?



# 18. İQTİSADİ RESURSLAR VƏ VASİTƏLƏR

*Bunlar insanlara nə üçün lazımdır?*



1.

**İqtisadi resurslar.** İnsanlar hər gün çoxlu miqdarda ərzaq, geyim, məişət avadanlığı, inşaat materialları, maşın, informasiya texnologiyaları və s. istehsal edirlər. Bütün bunları istehsal etmək üçün ölkənin iqtisadi resursları olmalıdır. İqtisadi resurslar maddi resurslara və insan resurslarına ayrılır.




Neft, qaz, müxtəlif faydalı qazıntılar və s. xammal məhsulları əldə edilərək emal müəssisələrində emal olunur. Bu xammaldan zavod və fabriklərdə müxtəlif sənaye məhsulları hazırlanır. Bu məhsullar bazarlarda satılır, yaxud başqa məhsullarla dəyişdirilir. Beləliklə, mal və puldan ibarət müəyyən vəsait toplanır. Bu vəsaitə «kapital» deyilir.





2.

*Təbii pambıqdan olan geyimlərimiz belə yaranır.*

Zavod və fabriklərdə, kənd təsərrüfatı sahələrində fəhlələr və ixtisaslı mütəxəssislər çalışırlar. İstehsal prosesini onların əməyi olmadan təsəvvür etmək mümkün deyil. Ona görə də insanları iqtisadi resurslara daxil edir və «insan resursları» adlandırırlar.




3.

İnsanlar uzun illər ərzində məhsulların istehsalı ilə bağlı təcrübə toplayır, vərdişlər qazanırlar. Uzun illər toplanmış bilik və təcrübə istehsal prosesində böyük əhəmiyyət daşıyır. Çünki bu, məhsulun daha tez və keyfiyyətli hazırlanmasına kömək edir. Bir çox şirkətlər öz məhsullarının keyfiyyəti ilə seçilir və dünyada şöhrət qazanırlar. Məsələn, avtomobil, telefon, kompüter cihazları, bəzi qida məhsullarının istehsalı üzrə məşhur şirkətlər yaranmışdır. İstehlakçılar bu şirkətlərin mallarına daha çox üstünlük verirlər.

**Araşdırın:**



Hansı dünya şöhrətli şirkətləri tanıyırsınız? Müxtəlif mənbələrdən bu şirkətlər barədə əlavə məlumat əldə edin.

İnsan resurslarının inkişafında peşə və ixtisas təhsilinin böyük rolu vardır. Çünki öz işinin ustası olan bilikli və bacarıqlı işçinin istehsal etdiyi məhsulun keyfiyyəti yüksək olur.




Hər bir ölkənin inkişafı və gələcəyi onun iqtisadi resurslarından asılıdır. Ona görə də maddi və insan resurslarının qorunması və onlardan səmərəli istifadə edilməsi vacibdir. Bu, təbii ehtiyatlardan istifadə zamanı itkilərə yol verilməməsi, həmçinin insanların sağlamlığının qorunması, onların bilik və bacarığının daim yüksəlməsi deməkdir.

**İqtisadi vasitələr.** Yollar, binalar, zavodlar, fabriklər, rabitə, cihaz və avadanlıqlar istehsal üçün normal şərait yaradan vasitələrdir.

Avtomobil, dəmiryolu, su və hava yolları istehsal prosesində böyük rol oynayır. Bu yollarla tikinti materialları, maşın və avadanlıq, xammal uzaq məsafələrə daşınır. Zavod, fabrik və digər müəssisələrdə bu materiallardan sənaye məhsulları istehsal olunur.



*Cəmiyyət üçün iqtisadi vasitələrin əhəmiyyəti nədir?*

**Araşdırın:**



Yaşadığınız yerdə (şəhərdə, qəsəbədə, kənddə) olan iqtisadi vasitələr və onların fəaliyyəti barədə məlumat toplayın.

Rabitənin də istehsal prosesində rolu vardır. Bütün biznes əlaqələri, uzaq məsafədən məlumatların ötürülməsi və s. funksiyalarına görə rabitə iqtisadiyyatın ən mühüm vasitələrindəndir. İstehsal prosesində ətraf mühitə mənfi təsir edən, əhalinin sağlamlığına ziyan vuran hadisələr də baş verə bilər. Bu cür məlumatların vaxtında elan edilməsi vəzifəsi də rabitə vasitələrinin üzərinə düşür.

Müasir dövrdə iri istehsal sahələri, demək olar ki, avtomatlaşdırılmışdır. Yəni keçmişdə olduğu kimi, əl əməyindən və bəsit əmək alətlərindən istifadə edilmir. İndi zavod və fabriklərdə mürəkkəb əməliyyatları dəqiqliklə yerinə yetirən maşın və cihazlardan istifadə olunur.




Maddi resursların əldə edilməsi, iqtisadi vasitələrdən istifadə təbiətə təsirsiz ötüşmür. Yeraltı və yerüstü sərvətlərin mənimsənilməsi, nəqliyyatın, fabrik və zavodların fəaliyyəti zamanı insan ətraf mühitə təsir göstərir. Bu təsir bəzən ekoloji tarazlığı pozur.

*Ölkəmizin hansı təbii sərvətləri vardır?*

Azərbaycan təbii sərvətlərlə zəngin bir ölkədir. Onun çoxlu yerüstü və yeraltı sərvətləri vardır. Neft Azərbaycanda ən çox gəlir gətirən faydalı qazıntıdır. Bundan başqa, Azərbaycan çoxlu təbii qaz ehtiyatlarına da malikdir. Azərbaycan dövləti ölkə ərazisində olan iqtisadi resurslardan xalqın rifahı naminə istifadə edir. Dövlətimiz çalışır ki, iqtisadiyyatın inkişafı ətraf mühitə ziyan vurub ölkədəki ekoloji tarazlığı pozmasın. Bu məqsədlə son illərdə respublikamızda ətraf mühitin mühafizəsi, ekoloji təhlükəsizlik, təbii sərvətlərdən istifadə ilə əlaqədar çox işlər görülmüşdür.


**4.**

*Bibiheybətdə neftdən təmizlənmiş ərazidə əkilən ağaclar*

## Sual və tapşırıqlar:

1. Nə üçün pambığı «ağ qızıl» adlandırırlar? Pambıq bitkisindən hansı məmulatların hazırlanmasında istifadə edilir?
2. Pambıqdan kapital necə yaranır?
3. İnsan resurslarını necə inkişaf etdirmək olar?
4. İqtisadi vasitələrə nələr daxildir?
5. İqtisadiyyatda rabitənin roluna aid daha hansı nümunələr gətirə bilərsiniz?
6. «Məlumatlısan, deməli, silahlısan» ifadəsini mətnin hansı hissəsi ilə əlaqələndirmək olar? Öz fikrinizi nümunələrlə əsaslandırın.
7. «Azərbaycan Respublikasının iqtisadi resursları» adlı təqdimat hazırlayın.

## 19. SAĞLAMLIĞIN QORUNMASI



*Şəkillərdə necə həyat tərzi təsvir olunmuşdur?*



*1.*

**İnsan inkişafı və onun göstəriciləri.** Yer üzərindəki hər bir insanın həyatı eyni dərəcədə qiymətlidir. Ona görə də hər bir insana yaşamaq, sağlamlığını qorumaq, qabiliyyətlərini inkişaf etdirmək üçün normal şərait yaradılmalıdır. Elə etmək lazımdır ki, insanların həyat səviyyəsi daim yüksəlsin.




*2.*



*Fiziki sağlamlıq nə deməkdir?*

İnsanların sağlamlığı, təhsili, maddi rifah halı və s. insan inkişafının əsas göstəriciləridir. Bu göstəricilər arasında sağlamlıq birinci yerdə durur.

Fiziki sağlamlıq orqanizmin təbii halıdır. Fiziki sağlam insanın orqanizmində bütün orqan və sistemlər düzgün işləyir və inkişaf edir.

Fiziki sağlamlığın göstəricilərindən biri uzunömürlülükdür. Ən yüksək inkişaf etmiş ölkələrin siyahısında birinci yerdə dayanan Norveçdə bu göstərici

*Dövlət vətəndaşlarının sağlamlığını qorumaq üçün hansı tədbirləri görür?*

74–81 ildir. Azərbaycanda uzunömürlülük səviyyəsi 68–73 yaşdır.

**Sağlamlığa dövlət qayğısı.** Dövlət hər bir vətəndaşın sağlamlığı üçün məsuliyyət daşıyır. Azərbaycan Respublikasının Konstitusiyasında göstərilir ki, hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, sağlam ətraf mühitdə yaşamaq hüququ vardır.

Hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır. İnsanların bu hüququnun təmin edilməsi ilə bağlı səhiyyənin bütün növləri inkişaf etdirilir. Dövlət həm də ***sanitariya-epidemiologiyanın**** yüksək səviyyədə olması və tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır.

Dövlət vətəndaşların keyfiyyətsiz, təhlükəli mallardan qorunması üçün tədbirlər görür. Bu məqsədlə ərzağın və digər malların tərkibinə dövlət tərəfindən nəzarət edilir. Sağlamlığa ziyan vuran məhsulların ölkəyə gətirilməsinin qarşısı dövlətin xüsusi icra orqanları tərəfindən alınır.



**Araşdırın:**
Yaşadığınız yerdə (şəhərdə, kənddə) əhalinin sağlamlığı üçün görülən tədbirlər barədə məlumat toplayın.

**Sağlam həyat tərzinin əsas şərtləri.** Sağlamlığını qorumaq üçün insanın özünün də üzərinə məsuliyyət düşür. Məsuliyyətli insan sağlam həyat tərzinin şərtlərinə uyğun ömür sürür. Başqa sözlə, o bütün profilaktik qaydalara əməl edir və xəstələnməsinə imkan yaratmır.

Pintilik sağlamlığın düşmənidir. Sağlamlığını qorumaq istəyən insan gündəlik həyatında mütləq gigiyenik tələblərə əməl etməlidir. Küçədən gələn kimi əlləri yumaq, dişləri səhər və axşam fırçalamaq, tez-tez yuyunmaq, saçları, qulaqları, dırnaqları təmiz saxlamaq sağlamlığın qorunması üçün vacibdir.



3.

*Sağlam olmaq istəyirsənsə, hərəkət et.*

---

****sanitariya-epidemiologiya*** – əhalinin sağlamlığını mühafizə etməyə, yoluxucu xəstəliklərin qarşısını almağa yönəldilmiş tədbirlər sistemi

İnsan yaşından asılı olmayaraq, mümkün qədər çox hərəkət etməlidir. Çünki hərəkətsizlik sağlamlığın düşmənidir. Hərəkətsizlik insanın orqanizmində müxtəlif xəstəliklərin yaranmasına səbəb olur.

Sağlamlığını düşünən insan orqanizm üçün ziyanlı qidaları qəbul etmir. Məsələn, yediyi buterbrodun içərisindəki ərzaqların təzəliyinə əmin olur, zərərli ***aşqarlar**** qatılmış çipsilər, energetik içkilər qəbul etmir. Yuxu rejiminə əməl edir. Gecədən xeyli keçənə qədər televizora baxmır, yaxud kompüter qarşısında əyləşmir. Özünü soyuğa vermir, yoluxucu xəstəliklərdən qorunur.



*4.*

*«Fast food» (fəst fud) qidalarından çox istifadə etmək orqanizm üçün zərərlidir.*

Sağlamlığını düşünən insan özündə müsbət keyfiyyətlər tərbiyə edir, insanlarla dinc münasibətlər qurur. Bu, «Sağlam bədəndə sağlam ruh» deməkdir.

---

****aşqar*** – müəyyən məqsədlə bir şeyin tərkibinə qatılan maddə. Burada ərzaq məhsulunun xarab olmaması üçün onun tərkibinə qatılır. Belə aşqarlar ərzaq məhsulunu xarab olmağa qoymur, amma əvəzində orqanizmə mənfi təsir edir.



*Qədim spartalılar düşünürdülər ki, ölkənin əbədi yaşaması yalnız fiziki cəhətdən sağlam, möhkəm insanlardan asılıdır. Ona görə də bütün diqqət uşaqların fiziki cəhətdən möhkəm olmasına yönəldilmişdi. Spartalıların ölkənin inkişafına bu cür yanaşmaları Spartanı yox olmaqdan qurtarmadı. Sizcə, nə üçün? Fikrinizi əsaslandırın.*


**5.**

*spartalılar*

## Sual və tapşırıqlar:

1. Sağlamlığın əsas göstəriciləri hansılardır?
2. İnsanın yüksək mənəvi keyfiyyətləri onun fiziki sağlamlığına necə təsir edir?
3. «Zərərli vərdişlərin sağlamlığa mənfi təsiri» mövzusunda fikirlərinizi yazın.
4. Nə üçün fiziki sağlam olmaq hələ tam sağlam olmaq demək deyil?

## 20. EMOSİYALAR VƏ SAĞLAMLIQ



*Bu maskalar nə ifadə edir?*



1.

**Müsbət və mənfi emosiyalar.** İnsan hər gün müxtəlif hadisələrlə qarşılaşır. Məktəbdə, evdə, oyun meydançasında və s. yerlərdə olarkən biz müxtəlif hislər keçiririk. Bizim cisim və hadisələrə, insanlara bəslədiyimiz münasibətlərdən sevinc, kədər, qorxu, həyəcan, qəzəb və s. hislər yaranır. Məsələn, gözəl təbiət mənzərəsi bizdə xoş hislər yaradır. Memarlıq abidələrini, rəsm əsərlərini seyr edən zaman əhvalımız dəyişir. Musiqi dinləyəndə, teatr tamaşasına baxanda qəlbimiz fərqli duyğularla dolur. Bu hisləri və münasibətləri biz emosiyalarla ifadə edirik. Hiss və münasibətlərdən asılı olaraq emosiyalar da müsbət və mənfi olur.



*Həyatınızın bir gününü gözünüzün önünə gətirin. Həmin gün baş verən hadisələr içərisində ən çox nə yadınızda qalıb? Bu hadisə baş verəndə hansı hisləri keçirdiniz?*



2. 3. 4. 5.

*Bu şəkillərdə hansı emosiyalar ifadə olunmuşdur?*

**Emosiyaların sağlamlığa təsiri.** Emosiyaları insanın sağlamlığına təsir göstərir. Müsbət emosiyalar sağlamlıq üçün faydalı, mənfi emosiyalar isə zərərlidir.

Müsbət emosiyalar insanda xoş ovqat yaradır və bu yolla da onun sağlamlığına yaxşı təsir edir. Mənfi emosiyalardan uzaq olmaq sağlamlıq üçün çox vacibdir. Ətrafdakı insanlarla yaxşı münasibətdə olmaq insanda müsbət emosiya yaradır. Ona görə də insanlarla ünsiyyətdə mehriban, gülərüz olmağa çalışmaq lazımdır.

*Kədərli bir hadisə baş verəndə özünüzü necə hiss edirsiniz?*

Daim kədərli olan insan həyata marağını itirir. Heç nə onu sevindirmir. O, dostlarından uzaqlaşır, yaradıcılığa həvəs göstərmir. Güclü həyəcan keçirmək, nədənsə bərk qorxmaq, bərk əsəbiləşmək də insanda bir çox xəstəliklərin yaranmasına səbəb olur. Mənfi emosiyalar orqanizmin xəstəliklərə qarşı müqavimətini azaldır.



6.

*çılğınlıq*

**Emosional sağlamlıq.** Bütün insanlar emosiyalarını eyni cür ifadə etmirlər. Elə insanlar var ki, qəzəblənəndə nalayiq sözlər danışır, ətrafdakıları narahat edən hərəkətlərə yol verirlər. Yaxud sevinərkən elə bərk qışqırırlar ki, hamı çevrilib təəccüblə onlara baxır. Emosional cəhətdən sağlam olan insan emosiyalarını idarə etməyi bacarır. Yəni bu emosiyaları həddən artıq çılğınlıq göstərmədən, normal şəkildə ifadə edir. Kədərlənəndə, sevinəndə, həyəcanlananda ətrafdakı insanları narahat edən, təəccübləndirən, bəzən də qorxudan hərəkətlər etmir.

*Emosional sağlamlığa necə nail ola bilərik?*

Bəzən həm mənfi, həm də müsbət emosiyalar insanda stressə səbəb olur. Yüksək emosiyalılıq ürəyə birbaşa təsir edib onun normal ritmini pozur. Ona görə də emosiyalarını idarə etməyi bacaran insan, həm sağlamlığını, həm də mənəviyyatını qorumuş olur. İnsan fiziki və mənəvi sağlamlığı kimi emosional sağlamlığına qarşı da diqqətli olmalıdır.

**Mənfi emosiyalardan azad olmaq bacarığı.** Hər bir insan mənfi emosiyalardan uzaqlaşmağı bacarmalıdır.



7.

*Yaradıcılıq insanda xoş ovqat yaradır.*



*Siz mənfi emosiyalardan xilas olmaq üçün nə edərdiniz?*

Bunun ən yaxşı vasitələrindən biri xoş ovqat yaradan musiqiyə qulaq asmaqdır. Səhər şən musiqi dinləyən insan günə yaxşı əhvalla başlayır. Bu, iştahanı artırır, qəbul edilən qidanın həzmini yaxşılaşdırır. Gözəl melodiya insanın iş qabiliyyətini yüksəldir.

**Araşdırın:**



Musiqi dərsindən bildiyiniz klassik musiqiləri tərtib etdiyiniz cədvəldə şən və kədərli olmaqla iki yerə ayırın.

Rəsm çəkmək, rəqs etmək və ya digər yaradıcılıq növləri ilə məşğul olmaq da insanda xoş ovqat yaradır.

Mənfi emosiyalardan azad olmaqda ünsiyyətin də böyük rolu var. Kədərli anlarında insanın dərdini söyləyə biləcəyi dosta ehtiyacı olur. Sevinc hisləri keçirən insan da sevincini kiminləsə bölüşməyə ehtiyac duyur. Atalar yaxşı demişlər: «Kədərini bölüşərsən, azalar, sevincini bölüşərsən, çoxalar!»

Ovqatını pozmamağın bir yolu da istənilən hadisədən yaxşı nəticə çıxarmaqdır. Hər hadisədə yaxşı nə isə tapmaq və ondan faydalanmaq bacarığı insanda müsbət emosiyalar yaradır. Məsələn, valideyni uşağa kompüter oyunları oynamağa icazə verməsə, uşaq bundan iki cür nəticə çıxara bilər. Əgər buna görə uşaq inciyərsə, əhvalı pozulacaq. Amma ağıllı uşaq bu hadisədən özü üçün fayda götürə bilər. O, vaxtında dərslərini hazırlayar, kitab rəfini qaydaya salar, otağını yığışdırar, yaxud başqa faydalı bir iş görər. Bundan həm valideyni, həm də özü razı qalar. Belə olan halda onun ovqatı da xoş olacaq.

## Sual və tapşırıqlar:

1. Üzeyir Hacıbəylinin «Koroğlu» operasının uvertürası insanda hansı hisləri yaradır?
2. «Təsviri incəsənət əsərlərinin məndə yaratdığı təəssürat» mövzusunda esse yazın.
3. İnsan mənfi emosiyalardan necə azad ola bilər?
4. Aşağıdakı cədvəli dəftərinizə çəkib işləyin.

| EMOSİYALAR | |
|---|---|
| müsbət | mənfi |
| | |

## 21. PİYADA VƏ SƏRNİŞİN MƏDƏNİYYƏTİ

*Bu halda siz necə hərəkət edərdiniz?*






1.

**Piyadaların məsuliyyəti.** Yol hərəkəti qaydalarına əməl etməkdə həm piyadalar, həm də sürücülər məsuliyyət daşıyırlar.

Yeraltı və yerüstü keçidləri piyadaların təhlükəsizliyi üçün tikmişlər. Adətən, belə keçidlər avtomobillərin sıx hərəkət etdiyi yollarda, dəmiryollarında tikilir. Piyadalar öz təhlükəsizliyini qorumaq üçün mütləq yeraltı və yerüstü keçidlərdən istifadə etməlidirlər. Bir çox piyadalar nəinki keçidlərdən istifadə etmirlər, hətta işıqforun işarələrinə də məhəl qoymurlar. Dəfələrlə təkrar olunan bu hərəkət bir gün faciə ilə nəticələnə bilər.



*Yol nişanları qoyulmayan yerlərdə yolu necə keçmək lazımdır?*

Bəzən piyadalar üçün qırmızı işıq yanan zaman yolda avtomobil görünmür. Düşünmək olar ki, avtomobil yoxdursa, yolu keçmək olar. Amma bu, düzgün deyil. Yaşıl işığın yanmasını gözləmək piyada mədəniyyətinin göstəricisidir. Digər tərəfdən uzaqda olan avto-

### YOL NİŞANLARI

1) Piyada keçidi
2) Yeraltı piyada keçidi
3) Yerüstü piyada keçidi
4) Piyadaların hərəkəti qadağandır
5) Avtobusun və ya trolleybusun dayanacaq yeri
6) Minik taksilərinin dayanacaq yeri
7) Tramvayın dayanacaq yeri
8) Polis hissəsi
9) İçməli su
10) İlk tibbi yardım məntəqəsi
11) Tualet
12) Yanacaqdoldurma məntəqəsi



**Araşdırın:**



Hər gün gəlib-getdiyiniz yolda qoyulan yol nişanları və onların vəzifəsi haqqında məlumat tərtib edin.

mobil sürətlə gəlib çata bilər. Belə vaxtda həm sürücü, həm də piyada özlərini itirər və qəza baş verər.

Bir çox piyadalar yol keçərkən mobil telefonla danışır, yaxud qulaqcıq vasitəsilə musiqi dinləyirlər. Bu onların diqqətini yayındırır, sayıqlığını kütləşdirir. Piyada yaxınlaşmaqda olan avtomobili hiss etmir. Nəticədə yol-nəqliyyat hadisəsi baş verir və piyadanın sağlamlığına ziyan dəyir.

Yollarda hərəkət qaydalarını göstərən nişanlar qoyulur. Piyadalar və sürücülər bu nişanları tanımalı, onların göstərişlərinə əməl etməlidirlər.

**Sərnişinlərin məsuliyyəti.** Nəqliyyat vasitələrində də davranış qaydaları vardır və bu qaydalara əməl etmək vacibdir. Avtobusdan düşəndən sonra yolu keçmək lazımdırsa, avtobusun qarşısından deyil, arxasından və piyada keçidindən keçməlisiniz. Avtobus gözləyərkən dayanacaqda dayanmaq lazımdır.



2.



3.



4.



5.

## SAĞLAM VƏ TƏHLÜKƏSİZ HƏYAT

Dövlət piyadalar və sərnişinlər tərəfindən yol hərəkəti qaydalarının pozulmasına görə cərimələr nəzərdə tutur.



*Avtobus gözləyərkən nə üçün səkidən aşağı düşmək olmaz?*

**Piyadalar**

– yolu piyada keçidindən keçmədikdə;
– piyada işıqforlarına və nizamlayıcının işarələrinə əməl etmədikdə;
– yolun hərəkət hissəsinin, dəmiryol keçidinin müəyyən olunmayan yerindən keçdikdə;
– yolda yaxınlaşmaqda olan nəqliyyat vasitələrinin qarşısına qəflətən çıxdıqda;
– qırmızı və ya göy sayrışan işıq və xüsusi səs siqnalı qoşulmuş nəqliyyat vasitəsi yaxınlaşan zaman yolun hərəkət hissəsini tərk etmədikdə cərimə edilir.

**Sərnişinlər**

– nəqliyyat vasitəsinə minmə və düşmə qaydalarını pozduqda;
– təhlükəsizlik kəmərini bağlamadıqda;
– nəqliyyat vasitəsindən bayıra hər hansı əşya atdıqda;
– sürücünü nəqliyyat vasitəsini idarə etməkdən yayındırdıqda cərimə edilir.

Həyatı və sağlamlığı üçün məsuliyyət daşıyan hər bir insan yol hərəkəti qaydalarına əməl etməlidir. Qaydaların pozulmasına görə cərimələri ödəmək olar. Amma piyadalar düşünməlidirlər ki, qaydaları pozmaqla onlar çox dəyərli sağlamlıqlarını və həyatlarını itirə bilərlər. Bu isə heç bir məbləğlə müqayisə edilə bilməz.

### Sual və tapşırıqlar:

1. Yol hərəkəti qaydalarına əməl etmək nə üçün mədəni davranış norması hesab olunur?
2. Yol hərəkəti qaydalarının pozulması zamanı hansı cəzalar nəzərdə tutulur?
3. Sizcə, piyadaların qaydaları pozmasının qarşısını almaq üçün daha hansı tədbirləri görmək olar?
4. 72-ci səhifədəki 4-cü şəkildə uşağın qaydanı nə üçün pozduğunu və bunun mümkün nəticələrini izah edin.

## 22. MƏİŞƏTDƏ NECƏ DAVRANMALI



*Elektrik cihazları nə zaman təhlükəli olur?*



*1.*

Zaman keçdikcə insanların həyatında texnikanın rolu artır. Lakin bəzən cihaz və avadanlıqda yaranan nasazlıqlar qəzalara səbəb olur. İnsanların ehtiyatsızlığı üzündən də qəzalar baş verir.



*Hansı qaz cihazlarını tanıyırsınız?*

**Qaz cihazlarından təhlükəsiz istifadə.** Məişətdə müxtəlif qaz cihazlarından istifadə edirik. Nasaz qaz cihazlarından istifadə etmək təhlükəlidir. Qaz cihazlarından istifadə edən hər kəs çox diqqətli olmalıdır. Ehtiyatsız hərəkət, diqqətsizlik güclü yanğın və partlayışlarla nəticələnə bilər.



*2.*

Qaz pilətəsindən istifadəyə başlamazdan əvvəl kranların bağlı olmasına əmin olmaq lazımdır. Qazı yandırmaq üçün yandırılmış kibriti odluğa yaxınlaşdırmaq, o biri əllə kranın dəstəyini yüngülcə basıb burmaq lazımdır.

*Mənzildə qaz iyi hiss etdikdə*

| **olmaz** | **etməlisiniz** |
| --- | --- |



*3.*

| | |
| --- | --- |
| *kibrit yandırmaq, siqaret çəkmək, elektrik cihazlarından istifadə etmək, onları şəbəkəyə qoşmaq və şəbəkədən ayırmaq* | *pəncərələri açmaq, qaz pilətəsinin və qaz balonunun kranlarını, qaz cihazlarına gələn qaz xəttini bağlamaq* |

Qaz normal yanarkən alov sakit, rəngi isə göyümtül olur. Qaz cihazında nasazlıq olanda qaz göyümtül deyil, narıncı rəngə çalır, alov titrəyir. Belə olan halda istifadəni dayandırıb qaz xidmətinə (104) zəng vurmaq lazımdır. Yanan qaz cihazlarını heç vaxt nəzarətsiz qoymaq olmaz.

Bəzən müxtəlif səbəblərdən qaz sızması baş verir. Bu zaman mənzilin havasında çoxlu miq-

darda qaz toplanır. Mənzildə və digər yerlərdə qaz qoxusu hiss etdikdə kibrit, alışqan yandırmaq olmaz. Bu zaman elektrik cihazlarından istifadə etmək də partlayışa səbəb ola bilər. Unutmaq olmaz ki, telefon da elektrik cihazıdır. Ona görə də qaz toplanmış mənzildə telefondan istifadə təhlükəlidir. Əgər sızma qaz cihazındakı kranın açıq qalmasından əmələ gəlmişsə, onu bağlamaq, sonra dərhal qapı və pəncərələri açıb mənzili tərk etmək lazımdır. Qaz qoxusunun tamamilə çəkildiyinə əmin olmadan qaz cihazından istifadə etmək olmaz.


4.

**Elektrik cihazları ilə işləyərkən davranış qaydaları.** Ütü, paltaryuyan maşın, tozsoran, fen, soyuducu, televizor, radio və s. bizim məişətdə hər gün istifadə etdiyimiz elektrik cihazlarıdır. Bu cihazlarla işləyərkən təhlükəsizlik qaydalarına əməl etməmək ciddi məişət qəzalarına səbəb ola bilər. Bu təhlükəsizlik qaydaları hansılardır?


5.

*Paltar ütüləyən zaman rezin altlığın üstündə dayanmaq lazımdır.*

Elektrik çaydanını qoşarkən çaydanda su spiralın üstünü örtməlidir. Əks-təqdirdə çaydan dərhal yana bilər. Qazanı və ya çaydanı elektrik pilətəsinin üstünə qoyduqdan sonra onu yandırmaq olar.

Ütüdən istifadə edərkən elektrik mənbəyinin sazlığı yoxlanmalıdır. Paltar ütüləyən zaman ütü çox qızdıqda onu şəbəkədən ayırmaq və soyuması üçün nəm əsgini bir neçə dəfə ütüləmək lazımdır. Qaynar ütünü qətiyyən su ilə soyutmaq olmaz — buxar gözü və əlləri yandırar.

Uzun müddət fasiləsiz işləyən, istilik batareyaları yanında və ya mebel içərisində quraşdırılan televizor qızma nəticəsində yanğına səbəb ola bilər.

Bir çox insanlar: yol polisi, tibb işçiləri, xilasedicilər və s. sizin təhlükəsizliyiniz üçün çalışırlar. Lakin qaz və elektrik cihazları ilə diqqətli davranmasanız, yolu keçəndə ehtiyatlı olmasanız, onlar sizin təhlükəsizliyinizi qoruya bilməzlər.



6.

*Olduğunuz yerlərdə bu işarələrə rast gələndə laqeydlik göstərməyin.*



**Araşdırın:**

Son bir ildə baş vermiş, insan tələfatı ilə nəticələnən məişət qəzaları və onların yaranma səbəbləri barədə məlumat toplayın.

**UNUTMAYIN!** İnternet, ilk növbədə, təhsilinizi artırmaq üçün vasitədir. Lakin internetdən istifadə zamanı bəzi qaydalara əməl etməsəniz, bundan ciddi ziyan çəkə bilərsiniz.

1) İnternetdə tanış olduğunuz insan həqiqi kimliyini gizlədə bilər. Məsələn, o sizə yazdığı kimi 10–12 yaşlı uşaq yox, yaşlı bir adam ola bilər.
2) İnternet vasitəsilə tanış olduğunuz insan sizinlə real həyatda görüşməyi təklif edirsə, təklifi qəbul etməzdən əvvəl mütləq valideynlərinizlə məsləhətləşin.
3) İnternetdə olan hər hansı məlumatı almaq üçün SMS göndərmək tələb olunursa, siz bunun üçün əvvəlcə internet istifadəçisi olan böyüklərinizlə məsləhətləşin.



7.

*İnternetdən təhlükəsiz istifadə qaydalarına daha nələri əlavə edə bilərsiniz?*

**DİQQƏTLİ OLUN!**



8.

*Bu alətlər kəsici, deşici və əzici xüsusiyyətlərə malikdir. Onlarla işləyərkən ehtiyatsız hərəkət etsəniz, zədə ala bilərsiniz.*

## Sual və tapşırıqlar:

1. Qaz sızması hansı səbəblərdən baş verə bilər?
2. Qaz cihazlarından istifadə qaydalarında nələrə diqqət etmək vacibdir?
3. Elektrik cihazlarından istifadədə hansı qaydalara əməl etmək lazımdır?
4. Kəsici, deşici və əzici alətlərdən ehtiyatsız istifadə zamanı yarana biləcək zədələr haqqında danışın.
5. İnternetdən istifadə zamanı nələrə diqqət etmək lazımdır?

# 23. ÖZÜMÜZÜ QORUMAĞI BACARAQ

*Bu cür hadisələr zamanı biz necə davranmalıyıq?*



*1.*

Hər bir ölkənin öz təbii iqlim şəraiti olur. Orada yaşayan canlılar həmin şəraitə öyrəşirlər. Lakin havanın temperaturunun +30 dərəcədən artıq olmadığı bir yerdə birdən-birə temperatur +40 dərəcəni keçə bilər. Eləcə də iqlimi isti, mülayim olan yerlərdə çox sərt şaxtalar ola bilər. Bu zaman güclü istilərə öyrəşməmiş insanlar günvurmadan, isti vurmadan həlak ola bilərlər. Yaxud bərk soyuqlara alışmamış əhali bundan əziyyət çəkə bilər. Bunlar təbii fövqəladə hadisələrdir. İnsanlar belə hallara qarşı həmişə hazırlıqlı olmalıdırlar.

Azərbaycanın iqlimi mülayimdir. Amma bəzən burada da sərt şaxtalar, güclü istilər və başqa təbii fövqəladə hadisələr baş verir. Bu hadisələr zamanı davranış qaydalarını bilmək və bu qaydalara əməl etmək çox vacibdir.




*2.*

**Sərt şaxtalar zamanı.** Yer buz bağlamışsa, sürüşməyən ayaqqabı geyinin. Sürüşməməsi üçün ayaqqabının altlığına leykoplastır, izolyasiya lenti yapışdırmaq, altlığı qum, yaxud sumbata kağızı ilə sürtmək də olar. Ehtiyatla, tələsmədən yeriyin. Yeriyərkən qıçlarınızı bir qədər boş saxlayın. Çalışın, əlinizdə ağır yük aparmayasınız.

Binaların qarşısından keçərkən karnizlərdən buz salxımlarının düşə biləcəyini nəzərə alın.

**Qızmar havalarda.** Güclü istilər zamanı da özünüzü istivurma və günvurmadan qorumalısınız. Günün altında durmayın. Pambıq parçadan, açıq rəngli paltar geyinin. Başıaçıq gəzməyin. Sizi isti vurubsa, dərhal




*3.*

kölgəliyə keçin, küləyin qabağında durun, yaxud duş qəbul edin. Qurtum-qurtum çoxlu su için.



4.

**Zəlzələ baş verərsə**. Binanın, çilçıraqların tərpəndiyini hiss etsəniz, yuxarıdakı əşyaların düşdüyünü görsəniz, şüşə sınmasının səsini eşitsəniz, təşvişə düşməyin. Binanı tərk etməyə çalışın (pilləkən və ya birinci mərtəbədə pəncərədən). Binadan çıxış yaxındadırsa, 6 saniyə ərzində açıq (təhlükəsiz) bir sahəyə çıxın. Balkonlardan və sütunsuz geniş sahəli yerlərdən uzaq durun. Əgər çıxış yaxın deyilsə (açıq sahəyə dərhal çıxmaq mümkün deyilsə), o zaman mütləq olduğunuz yerdə qalın. Təhlükəsiz bir yerdə uzanın. Məsələn:

– iki divarın birləşdiyi küncdə;

– irihəcmli divanın yanında;

– kreslonun yanında.

**Şimşəkli havada.** Şimşəkli havada bayırda gəzmək təhlükəli ola bilər. Evdə qapı-pəncərəni, ventilyasiya dəliklərini bağlayın. Telefonla danışmayın: ildırım bəzən simlərin üzərinə də düşür. Televizoru, radio və digər elektrik cihazlarını söndürün. Metal əşyalardan kənar durun.

Hadisə siz bayırda olan zaman da baş verə bilər. Əgər bu zaman:

– meşədəsinizsə, meşənin alçaq ağaclıq yerinə sığının. Hündür ağacların, xüsusilə şam, palıd və qovaq ağacının yanında gizlənməyin. Belə ağaclara ildırım düşə bilər.



5.

– su hövzəsi sahilində dayanmayın. Sahildən kənarlaşın, hündür yerdən aşağı düşün.

– düzənlikdə və ya daldalanmağa yer olmayan bir ərazidəsinizsə, yerə uzanmayın. Bununla bütün bədəninizi elektrik cərəyanının təsiri altında qoymuş olarsınız. Dayaz bir yerdə, yarğanda, çökəklikdə oturub əllərinizlə ayaqlarınızdan tutun.

**Sel və daşqın zamanı.** Bəzən güclü yağışlardan sonra çayların suyu artır. Bu zaman sular daşaraq sahildə yerləşən yaşayış məntəqələrini basır. Əgər belə bir hadisə ilə üzləşmiş olsanız, özünüzü itirməyin. Sənədlərinizi götürüb mənzilinizi tərk edin. Suyun səviyyəsi çatmayan hündür bir yerə çıxın. Çalışın

ki, suya düşməyəsiniz. Kömək gələnə qədər olduğunuz yerdə qalıb gözləyin.

Bu qaydaları öyrənməklə insan çətin vəziyyətlərdən çıxar və başqalarına da kömək edə bilər.

**Araşdırın:**



Yaşadığınız ərazidə nisbətən tez-tez baş verən təbii fövqəladə hadisələr və onların nəticələri barədə məlumat toplayın.

## SUDA TƏHLÜKƏSİZ DAVRANIŞ QAYDALARI

Yayda dəniz və çayların sahilində çoxlu insan olur. Onların bəziləri çayda dənizdə çimməyi xoşlayır.

Təhlükəsizlik qaydalarına əməl etmədikdə çay və dənizdə bədbəxt hadisələr baş verə bilər. Ona görə də bu qaydaları hamı bilməli və onlara əməl etməlidir. Suda təhlükəsiz davranış qaydalarına aşağıdakılar daxildir:

1. Heç vaxt bələd olmadığınız göldə, dənizdə və çayda çimməyin.
2. İti axarlı, sahili sıldırım olan bataqlıqlaşmış su hövzələrindən uzaq olun.
3. Yalnız icazə verilən yerlərdə çimin.
4. Havanın hərarəti 22, suyun hərarəti 18 dərəcədən aşağıdırsa, çimmək fikrinə düşməyin.
5. Qida qəbulundan dərhal sonra suya girmək olmaz. Saat yarım, iki saat fasilə verib sonra çimin.
6. Fırtınalı havada suya girməyin.
7. Əldə düzəldilmiş vasitələrlə üzmək fikrinə düşməyin. Onlar ağırlığınız altında davam gətirməyib qırıla bilər.
8. Hava ilə doldurulmuş döşəkçələrdən istifadə edərkən sahildən uzaqlaşmayın.
9. Suda olarkən ötüb keçən gəmi və qayıqlara yaxınlaşmayın.
10. Güclü axına qarşı üzməyin. Axınla üzərək yavaş-yavaş sahilə yaxınlaşın.
11. Əgər siz suya düşmüsünüzsə və üzməyi bacarmırsınızsa, o zaman sizə kömək gələnə qədər suda arxası üstə uzanın. Qollarınızı və qıçlarınızı tam halda kənara açaraq, başınızı suyun səthində saxlayın və əzələlərinizi gərməyin. Mümkün qədər dərindən və aramla nəfəs alın.

**Sual və tapşırıqlar:**

1. Zəlzələ zamanı çaxnaşma və vahimə yaratmaq nəyə gətirib çıxara bilər?
2. Qədim və müasir dövrlərdə baş verən təbii fövqəladə hadisələrdə hansı oxşar və fərqli cəhətlər var?
3. Nə üçün qış vaxtı yer buz bağlayanda ağır yüklə gəzmək olmaz?
4. Suda təhlükəsiz davranış qaydalarını şərh edin. Bu qaydalara əməl edilmədikdə hansı təhlükələr yarana bilər?

BURAXILIŞ MƏLUMATI

**HƏYAT BİLGİSİ 5**
*Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün*
*Həyat bilgisi fənni üzrə*
**DƏRSLİK**

**Tərtibçi heyət:**

Müəlliflər **_Gülər Ələkbər qızı Mehdiyeva_**
**_Bahar Əşrəf qızı Kərimova_**

Redaktor **_Aida Quliyeva_**
Bədii və texniki redaktor **_Abdulla Ələkbərov_**
Dizayner **_Təhmasib Mehdiyev_**
Üz qabığı **_Aqil Əmrahov_**
Rəssam **_Gündüz Ağayev_**
Korrektor **_Ülkər Şahmuradova_**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin*
*24.05.2016-cı il tarixli 354№-li*
*əmri ilə təsdiq edilmişdir.*

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2017**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 4,8. Fiziki çap vərəqi 5,0.
Formatı 70x100 $^{1}/_{16}$. Səhifə sayı 80. Ofset kağızı.
Məktəb qarnituru. Ofset çapı. Tiraj 9537. Pulsuz. Bakı—2017.

**«Aspoliqraf LTD» MMC**
Bakı, AZ 1052, F.Xoyski küç., 149

PULSUZ

## Əziz məktəbli!

Bu dərslik sənə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sənə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, sən də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsan ki, növbəti dərs ilində digər məktəbli yoldaşın ondan sənin kimi rahat istifadə edə bilsin.

Sənə təhsildə uğurlar arzulayırıq!